www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 dekabr 2025-ci il Cümə № 221 (8831) Qiymətı 60 qəpik

## Xəbər

### Əsgərliyə çağırışla bağlı qaydalar niyə dəyişdi?

yazısı səh.12-də

# TRAMPIN GENERALLARININ BAKI SƏFƏRİNİN KODLARI

ABŞ Azərbaycanı strateji tərəfdaşı olaraq qəbul etdiyi üçün ordumuzun güclənməsində də maraqlıdır; bu görüşlə paralel Bakıda praktiki təlimlərin keçirilməsinin əsl hədəfi...



yazısı səh.9-da

## Gündəm

### NATO Bakını "cənub cinahına" qoşur?



Şimali Atlantika blokunun Cənubi Qafqazdakı ofisinin rəhbəri Aleksandr Vinnikov Azərbaycana gəlib

yazısı səh.6-da

### Britaniyanın müdafiə naziri İlham Əliyevin qəbulunda

yazısı səh.5-də

### İcra başçılarının korrupsiyasına qarşı yeni metod

yazısı səh.4-də

### Qəbələdəki qapalı görüş - Bakı şərh vermir

yazısı səh.5-də

*Cavanşir Paşazadə:*

### "Deyirdilər ki, guya kartof-soğan biznesim var"

yazısı səh.7-də

### Brüsseldən İrəvana şərt: "Rusiyaya qarşı cəbhəyə keç..."

yazısı səh.8-də

### Bu deputatların mandatı ləğv ediləcək

yazısı səh.7-də

### Marketlərdə "halal" adı ilə donuz əti konservi

yazısı səh.11-də

### Regionların gələcəyi üçün kritik seçim

yazısı səh.13-də

### Otel sahiblərinin "cib bayramı" başlayır

yazısı səh.14-də

### Pul köçürmələri niyə azalır?

yazısı səh.14-də

# Hökumət "parnik"ləri öz nəzarətinə alır

İstixanaların tikintisi üçün icazə tələb olunur-sabiq nazir deyir ki, indi 100 hektardan yuxarı ərazilərin 1 faizi daxilində istənilən obyekti inşa etmək olar

yazısı səh.11-də



### Əbülfəs Qarayevin qızı film çəkdi, ara qarışdı

yazısı səh.3-də



### Ziyalılar Forumu niyə yaradıldı, niyə dağıldı? - Qulu Məhərrəmli danışdı

yazısı səh.4-də



Rövzət Qasımov

### YAP bu dəfə MSK-nı ona həvalə edə bilər

yazısı səh.3-də

# İran Azərbaycandan su almaq istəyir?



**İran dərin quraqlıq və su çatışmazlığı fonunda ilk dəfə olaraq su idxalına açıq olduğunu bəyan edib.**

Bu barədə İranın energetika naziri Abbas Əliyebadi çıxışında deyib.

Nazirin sözlərinə görə, əgər regionda suyu "məqbul qiymətə satmağa hazır olan ölkə varsa", Tehran su almağa hazırdır. Əliyebadi bildirib ki, İran hazırkı böhran şəraitində su təminatını sabitləşdirmək üçün bütün mümkün variantları nəzərdən keçirir.

İran son illərin ən ağır quraqlığını yaşayır. 2025-ci ilin martında prezident Məsud Pezeşkian quraqlığın və suya hədindən artıq tələbatın ölkəni humanitar fəlakətə sürüklədiyini açıqlamışdı. İlin ortasına doğru vəziyyət kritik həddə çatdı: paytaxt Tehranın bir çox rayonlarında suyun verilişi 48 saata qədər dayandırıldı.

2025-ci ilin yayında regionun ən böyük duzlu gölü olan Urmiya tamamilə qurudu. Noyabrda Tehranın əsas su hövzəsində ehtiyatlar minimuma düşdü və hökumət suyun cəmi bir neçə həftəyə çata biləcəyini etiraf etdi.

Prezident Pezeşkian noyabrın 8-də bəyan etmişdi ki, yağışlar olmasa, paytaxtın müəyyən hissələrinin əhalisi təxliyə edilə bilər.

İranın su idxalına açıq olması fonunda regionda, o cümlədən Azərbaycanda bu məsələnin gündəmə gələcəyi istisna edilmir. Lakin indiyədək rəsmi Bakıdan İranın su almaq təklifinə dair hər hansı açıqlama verilməyib.



## Prezidentdən "AzerGold"la bağlı sərəncam

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

Sərəncamda deyilir:

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180 (Cild I) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Vüqar Məcidli - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin" sözləri "Mehman İsmayılov - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturunun" sözləri ilə əvəz edilsin.

**2.** "Rəşad İsmayılov - Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri" sözləri "Əli Cəfərov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini" sözləri ilə əvəz edilsin.

## Ceyhun Bayramov Kaya Kallasla regional məsələləri müzakirə edib



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallasla görüşüb.**

Azərbaycan XİN xəbər verir ki, görüş ATƏT Nazirlər Şurasının Vyanada keçirilən 32-ci iclası çərçivəsində baş tutub.

Tərəflər Azərbaycan-Aİ əməkdaşlığının gündəliyini nəzərdən keçiriblər, yüksək səviyyəli təmasların müsbət dinamikasını alqışlayıblar, eyni zamanda enerji təhlükəsizliyi, nəqliyyat və rabitə, ticarət və "yaşıl keçid" sahələrində əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər.

Ceyhun Bayramov regional məsələlər və Azərbaycanın Cənubi Qafqazda davamlı sülh və sabitliyin təşviqi səyləri barədə Kaya Kallasa məlumat verib.

## Nəriman Həsənzadənin vəziyyəti ağırdır



**Xalq şairi Nəriman Həsənzadənin vəziyyəti açıqlanıb.**

Milli.az-a sorğusuna cavab olaraq Mərkəzi Klinikadan məlumat verilib.

Məlumata görə, şairin reanimasiya və intensiv terapiya şöbəsində müalicəsi davam edir:

"Xronik böyrək çatışmazlığı kəskinləşməsi diaqnozu ilə hemodializ proseduru növbəti dəfə icra oluna bilər. Vəziyyəti ağır stabil olaraq giymətləndirilir".

## Ərdəbil valisi Azərbaycana gəlir

**Gələn həftə Ərdəbil əyalətinin başçısı Məsud İmami Yeganə Azərbaycana səfər edəcək.**

Axar.az xəbər verir ki, bu barədə İran mediası məlumat verib.

Məlumata görə, səfərin məqsədi Ərdəbil əyalətində logistika limanının (Ərdəbil Logistika Doku - Qışkəndi (Parsabad) Logistika Limanı) işə salınması və Biləsuvar sərhəd-keçid məntəqəsinin yenidən açılması ilə bağlı danışıqları intensivləşdirməkdir.

Bildirilib ki, səfər zamanı sərhəd diplomatiyasının gücləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətində görüşlər keçiriləcək.



## AFFA Ayxan Abbasovla Saşa İliçi cəzalandırdı

**"Şamaxı"nın baş məşqçisi Ayxan Abbasov cəzalandırılıb.**

Bu barədə AFFA İntizam Komitəsinin iclasında qərar qəbul olunub.

Mütəxəssis Misli Premyer Liqasının XIII turunda baş tutan "Şamaxı" - "Sumqayıt" oyununun 88-ci dəqiqəsində rəqib komandanın texniki zonasına aqressiv şəkildə daxil olduğuna görə cəzalandırılıb. Baş məşqçi 1 oyunluq diskvalifikasiya edilib, "Şamaxı" isə 2000 manat cərimələnib.

İntizam Komitəsi "Sumqayıt"ın baş məşqçisi Saşa İliçə daha ağır cəza verib. Mütəxəssis "Şamaxı" ilə matçda rəqib komandanın texniki zonasına qeyri-etik ifadə və ya hərəkətə görə 4 oyunluq diskvalifikasiya olunub. "Sumqayıt" klubu isə baş məşqçinin hərəkətinə görə 10 000 manat cərimələnib.

Eyni oyunda "Sumqayıt" beş futbolçusunun sarı vərəqə aldığı üçün 700 manat məbləğində də cərimələnib.

## Azərbaycan Türkiyədən mal idxalına çəkdiyi xərci 6 % artırıb

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycan Türkiyədən 2 milyard 164,022 milyon ABŞ dolları dəyərində mal idxal edib.**

"Report" Türkiyənin Ticarət Nazirliyinə istinadən xəbər verir ki, bu, 2024-cü ilin eyni dövrünə nisbətən 6,1 % çoxdur.

Türkiyənin Azərbaycana ixracı onun ümumi ixracının 1 %-ni təşkil edib.

Hesabat dövründə Türkiyənin ümumi ixracının dəyəri illik müqayisədə 4,1 % artaraq 214 milyard 221,658 milyon ABŞ dollarına çatıb.

Türkiyədən ən çox idxalı Almaniya 18,292 milyard ABŞ dolları (1 il əvvələ nisbətən 9,9 % çox), Böyük Britaniya 12,748 milyard ABŞ dolları ( 9,6 % çox), ABŞ 11,866 milyard ABŞ dolları (3,3 % az) və İtalya 11,368 milyard ABŞ dolları (4,6 % çox) həyata keçirib.

Təkcə noyabrda isə Türkiyədən Azərbaycana 182,777 milyon ABŞ dolları dəyərində mal ixrac edilib ki, bu da illik müqayisədə 6,6 % azdır. Türkiyənin Azərbaycana aylıq ixracı ümumi ixracının 0,9 %-i qədər olub.

## 5 gün iş olmayacaq



**Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar olaraq 5 qeyri-iş günü olacaq. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, 1 və 2 Yanvar tarixləri isə yeni ilin gəlişi ilə bağlı qeyri-iş günüdür. Qeyd edək ki, 3-4 yanvar isə şənbə-bazar günlərinə təsadüf edir. Beləliklə, 31 dekabr - 4 yanvar tarixləri qeyri-iş günləri olacaq.**

## "Qarabağ" - "Ayaks" oyununun biletləri satışa çıxarıldı

**UEFA Çempionlar Liqasının liqa mərhələsi çərçivəsində keçiriləcək "Qarabağ" - "Ayaks" (Niderland) oyununun biletləri satışa çıxarılıb.**

Bu barədə klubdan məlumat verilib.

Standart biletlərin qiyməti 10, 15, 25, 35, 40, 50, 75 manat olacaq. VIP sektorlar 200, 250, 300 və 400 manat, VVIP sektorlar isə 1000 manat məbləğindədir.

Azarkeşlər biletləri yalnız iTicket.az-ın mobil tətbiqi və saytı üzərindən əldə edilə bilərlər.

Qeyd edək ki, dekabrın 10-da Tofiq Bəhramov adına Respublika stadionunda təşkil olunacaq görüş saat 21:45-də başlayacaq.



## Qalmaqalla işdən çıxarılan məmurun yerinə təyinat

**Dövlət Turizm Agentliyində yeni təyinat olub. ttps://bakupost.az/"Yeni Sabah" xəbər verir ki, bu barədə qurumun sədri Fuad Nağıyev əmr imzalayıb. Əmrə əsasən, Günay Bayramova Dövlət Turizm Agentliyinin Turizm siyasəti və strategiyası şöbəsinin müdiri vəzifəsinə təyinat alıb.**

O, indiyədək həmin şöbənin müdir müavini postunda çalışıb.

Qeyd edək ki, bu ilin mart ayında Dövlət Turizm Agentliyində böyük qalmaqal baş verib. Mətbuatda yayılan iddialara görə, qurumda Azərbaycana qarşı daim düşmənçilik mövqeyi bəsləyən "Transparency International" təşkilatında işləmiş və ya bu təşkilatla əməkdaşlıq edən şəxslər müəyyən edilib.

Bu qalmaqal fonunda agentliyin Aparat rəhbəri Kənan Qasımov və Turizm siyasəti və strategiyası şöbəsinin müdiri Məhəmməd Muradov vəzifəsindən azad olunub.

Prezident İlham Əliyevin martın 4-də imzaladığı sərəncamla, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edilib.

# Əbülfəs Qarayevin qızı film çəkdi, ara qarışdı

## “Məhsəti” filmi Bakı Film Festivalı proqramından çıxarıldı-səbəb

**“Məhsəti” filmi Mədəniyyət Nazirliyi və Kino Agentliyinin təşkil etdiyi “Baku Cinema Breeze 25" film festivalı çərçivəsində keçiriləcək Bakı Beynəlxalq Film Festivalından çıxarılıb.**

"Yeni Sabah"a istinadla xəbər verir ki, bunu ekran əsərinin rejissoru Suada Qarayeva bildirib. O həm öz, həm də layihənin prodüserləri Mariya İbrahimova (Azərbaycan) və Ada Solomonun (Rumıniya) adından bəyanat yayıb.

Rejissor paylaşımında bildirib: “Təəssüf ki, ”Məhsəti" filmimiz Bakı Film Festivalı proqramından çıxarılıb, çünki Mədəniyyət Nazirliyinin Film Şurası ona nümayiş lisenziyası verməkdən imtina edib və filmin mənəvi dəyərlərə uyğun olmadığını bildirib. Filmdə 12-ci əsr şairi Məhsəti Gəncəvini canlandırmaq istəyən gənc aktrisa dostları ilə kluba gedir, spirtli içki içir, rəqs edir və bir kişi ilə romantik münasibət yaşayır. Film Məhsəti Gəncəvinin hekayəsinə çağdaş yanaşma cəhdidir. O, tək ana tərəfindən böyüdülüb, sevgi, şərab, hisslər və azadlıq haqqında cəsarətlə və gözəlliklə yazan bir sənətkar idi. Onun yaradıcılığı, onu və ümumilikdə qadınları səsdən məhrum edib keçmişdə saxlamaq istəyənlərin bütün səylərinə baxmayaraq, demək olar ki, min ildir yaşayır.

Qadın kino yaradıcıları olaraq, qadınların necə təsvir olunа biləcəyinə dair bu cür absurd məhdudiyyətləri qəbul etmirik. Xüsusilə də bu məhdudiyyətlərin modern və dünyəvi bir ölkədən, qadınlara ən erkən səsvermə hüququ verənlərdən biri olmuş və Məhsəti kimi qadın ilhamları yetişdirmiş bir yerdən gəlməsi təəccüblüdür. Məhsəti təbiət qüvvəsi kimi biri idi - qabaqcıl, azad ruhlu, 12-ci əsrdən bu günə qədər işığı sönməyən parlaq bir ulduz. 21-ci əsrdə qadınları ənənəvi gender rollarında saxlamaqdan daha yaxşısına qadirik".

Rejissor və prodüserlər bu filmə ürəklərini və ruhlarını sərf edən bütün aktyorlardan, çəkiliş heyətindən və istedadlı insanlardan, eləcə də festivalda nümayişini səbirsizliklə gözləyən dostlarından, tərəfdarlarından və sevdiklərindən üzr istəyiblər. Qeyd edək ki, bu ilin mayında aktrisa Fərqanə Abdullanın rol aldığı “Məhsəti” filminin premyerası Kaliforniyada keçirilən “Mammoth Lakes” Beynəlxalq Film Festivalında baş tutub.

Xatırladaq ki, S.Qarayeva keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin yeganə övladıdır. O, Londonun Ali İqtisadiyyat Məktəbinin Fəlsəfə və Dövlət Siyasəti üzrə magistraturasını bitirib. Daha sonra aparıcı investisiya banklarında maliyyəçi vəzifələrində işləyərək uğurlu karyera qurmağa nail olub. Bunun ardınca Suad Qarayeva Mərkəzi Sent-Martin Kollecində müasir incəsənəti tədqiq etməklə və sonradan Qlazqo Universitetində Kristis Təhsil Proqramı üzrə Aktual və Müasir İncəsənət üzrə magistr dərəcəsini almaqla incəsənət aləminə qədəm basıb. Hazırda Londonda yaşayan S.Qarayeva bu şəhərdəki məşhur “Sotheby’s” Hərrac Evində layihə meneceri vəzifəsində işləyib. O, YARAT müasir incəsənət təşkilatının sərgilər və daimi kolleksiyalar üzrə kurator direktorudur. Sabiq nazirin qızı 2015-ci ildə İran əsilli iş adamı Şəhriyarla ailə qurub. Cütlük bir neçə il öncə Londonda tanış olub. Bu səbəbdən onların nikahı Londonda, toyları isə Bakıda baş tutub.






❑ **“Yeni Müsavat”**

# YAP bu dəfə MSK-nı ona həvalə edə bilər

## Siyasi kuluarlarda yeni sədrin Rövzət Qasımov olacağı iddia edilir, amma digər namizədlər də var

**Mərkəzi Seçki Komissiyasının (MSK) tərkibinin ilin sonunadək buraxılacağı gözlənilirdi. Yada salaq ki, MSK-nın hazırkı tərkib 2021-ci ilin aprel ayının 27-də formalaşıb. Mövcud qanunvericiliyə görə, MSK-nın səlahiyyət müddəti 5 ildir. MSK-nın tərkibinin yenidən formalaşması 2026-cı ilin aprel ayına təsadüf edir.**



Qanunvericiliyə əsasən də MSK-nın tərkibi Yeni Azərbaycan Partiyasının, parlamentdə azlıqda təmsil olunan siyasi partiyaların və bitərəflərin təqdim etdiyi siyahı əsasında formalaşır. Hər zaman da MSK sədri Yeni Azərbaycan Partiyasının təqdim etdiyi siyahının tərkibindən seçilir. Yəni bu, birbaşa YAP-ın iradəsindən asılıdır. MSK-nın 18 yerlik tərkibin 6 üzvü parlamentdə çoxluq təşkil edən partiyanın, 6 üzvü müstəqil deputatların, 6 üzv isə azlıqda olmaqla bölüşdürülür. Milli Məclisdə YAP daxil olmaqla, 11 partiya var. MSK-da 6 yer onlara, 6 yer isə müstəqillərə məxsusdur. Qalan 6 yeri isə 10 partiya öz aralarında razılaşdırmaqla müəyyənləşdirməlidir.

Hazırda MSK-ya Məzahir Pənahov sədrlik edir. O, gələn ilin mart ayında 75 yaşını tamamlayacaq. Məzahir Pənahov 2000-ci ildən etibarən bu vəzifəni daşımaqdadır. O, 1998-2000-ci illərdə MSK-nın Beynəlxalq Əlaqələr İdarəsinin rəisi işləyib. 2000-ci il mayın 19-da MSK üzvü təyin olunub və həmin gün komissiyaya sədr seçilib. 25 ildir MSK-ya sədrlik edən Məzahir Pənahov bu müddət ərzində 3 referendum (2002, 2009, 2016), 5 prezident (2003, 2008, 2013, 2018, 2024), 6 parlament (2000, 2005, 2010, 2015, 2020, 2024) və 5 bələdiyyə (2004, 2009, 2014, 2019, 2024) seçkisi keçirib. M.Pənahovdan öncə MSK-nın sədri Cəfər Vəliyev olub.

M.Pənahov son dövrlərdə mediada daha çox ailə problemləri ilə gündəmə gəlib. Siyasi kuluarlarda MSK-nın yeni sədrinin Rövzət Qasımov olacağı iddia edilir.

Qeyd edək ki, hazırda Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının YAP-dan olan üzvləri Məzahir Pənahov, Rövzət Qasımov, Hüseyn Paşayev, Şaitdin Əliyev, Ramiz İbrahimov, Validə Kazımovadır.

Heç bir siyasi partiyaya mənsub olmayan Milli Məclisin deputatlarını MSK-da təmsil edən üzvləri Arifə Muxtarova, İlham Məmmədov, Nizami Nadirxanlı, Fuad Cavadov, Qabil Orucov, Nailə Əsgərova və Aydın Muradovdur. Parlamentdə azlıq təşkil edən siyasi partiyaların MSK-da təmsilçiləri isə aşağıdakılardır:

Bəxşeyiş Əsgərov - Böyük Quruluş Partiyası, Etibar Quliyev - Ana Vətən Partiyası, Mikayıl Rəhimli - Ədalət, Hüquq və Demokratiya Partiyası, Almas Qəhrəmanlı - Vətəndaş Həmrəyliyi Partiyası, Tofiq Həsənov - Azərbaycan Demokratik İslahatlar Partiyası ilə birgə özünü buraxmış Vətəndaş Birliyi Partiyası.

MSK-nın yeni tərkibində bu siyahıdakıların yarıya yaxınının yer almayacağı gözlənilir.

Azərbaycan parlamentində yeni təmsil olunan partiyalardan biri də AMİP-dir. Qurumun Ali Məclisinin sədri Rəşad Bayramov “Yeni Müsavat”a bunları deyib: “Əslində gözləntilər ondan ibarət idi ki, növbədənkənar parlament seçkilərinin nəticələri təsdiq edildikdən sonra Mərkəzi Seçki Komissiyasının tərkibində də müvafiq dəyişikliklər baş versin və komissiya yenidən formalaşsın. Çünki mövcud qanunvericiliyə görə, Mərkəzi Seçki Komissiyasının tərkibi parlamentin tərkibi əsasında formalaşır. Seçki Məcəlləsinin 24.3.-cü maddəsinin tələblərinə görə, Mərkəzi Seçki Komissiyasının 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan bitərəfləri və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü isə deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edir.

Son parlament seçkilərindən sonra isə, məlum olduğu kimi, Milli Məclisdə təmsil olunan siyasi partiyaların tərkibində dəyişikliklər baş verib. Vətəndaş Birliyi Partiyası özünü buraxıb, Vəhdət Partiyası isə parlamentdə təmsil olunmayıb. Əvəzində iki partiya, AMİP və BAP parlamentdə təmsilçilik hüququ qazanıblar. Ona görə də MSK-nın da tərkibinin Milli Məclisin yeni tərkibinə uyğun olaraq yenidən formalaşacağına dair də gözləntilər var idi. Amma bu baş vermədi. Əsas olaraq isə Seçki Məcəlləsinin 23.1 -ci maddəsi götürüldü. Bu maddənin tələblərinə görə seçki komissiyalarının səlahiyyət müddəti 5 ildir. Son Mərkəzi Seçki Komissiyası 2021-ci ilin aprel ayında formalaşdığını nəzərə alsaq deyə bilərik ki, növbəti ilin aprelində MSK-nın yeni tərkibinin formalaşması da qaçılmaz olacaq.

O ki, qaldı kimin MSK-ya rəhbərlik edəcəyinə, bu məsələ tamamilə Yeni Azərbaycan Partiyasının qərarına bağlıdır. Belə ki, Seçki Məcəlləsinin 19.3-cü maddəsinin tələblərinə görə, Mərkəzi Seçki Komissiyasının sədri, müavini və iki katibi komissiyanın birinci iclasında açıq səsvermə yolu ilə seçilir. Sədr Milli Məclisdə deputatları çoxluq təşkil edən siyasi partiyanı, yəni YAP-ı, katiblərin hər biri isə Milli Məclisdə deputatları azlıq təşkil edən siyasi partiyaları və müstəqil deputatları təmsil edirlər. Bu o deməkdir ki, MSK-nın sədri istənilən halda YAP üzvü olacaq və o şəxs də Yeni Azərbaycan Partiyasını MSK-da təmsil edən şəxslərin içərisindən seçiləcək. YAP-ın kimləri yeni tərkibdə görmək istəyəcəyi məlum olmadığı üçün indidən sədrin kim olacağına dair də fikir bildirmək mümkün deyil. İndiki tərkibin özündə də MSK sədrliyi vəzifəsini daşıya biləcək şəxslər var. Bu, kifayət qədər təcrübəyə malik Rövzət Qasımov da, hər hansı başqa bir şəxs də, bu gün tərkibdə olmayan yeni bir sima da və ya yenidən tərkibə salınacağı halda elə Məzahir Pənahov da ola bilər. Bu məsələdə hər şey YAP-ın qərarına bağlıdır".

Ədalət, Hüquq, Demokratiya Partiyasının baş katibi Niyaməddin Orduxanlı Mərkəzi Seçki Komissiyasında Parlamentdə təmsil olunan azlıqda olan siyasi partiyaların ehtiyat üzvüdür. O, fikirlərini qısaca olaraq bölüşdü: “Mərkəzi Seçki Komissiyasının formalaşması 5 ildən bir həyata keçirilir. MSK-nın tərkibinin yenidən formalaşması 2026-cı ilin aprel ayına təsadüf edir. Qanunvericiliyə əsasən də MSK tərkibi Yeni Azərbaycan Partiyasının, Parlamentdə təmsilin olunan siyasi partiyaların və bitərəflərin təqdim etdiyi siyahı əsasında formalaşır. Hər üç tərəf siyahını Azərbaycan Respublikasının Parlamentinə təqdim edir. 18 nəfər heyətlə yanaşı 3 nəfər də, bir nəfər YAP-ın, 1 nəfər azlıqda olan siyasi partiyanın və 1 nəfər də müstəqil olanların ehtiyat üzvü seçilir. Ümumilikdə 21 nəfər MSK üzvü seçilir. Hər zaman da MSK sədri Yeni Azərbaycan Partiyasının təqdim etdiyi siyahının tərkibindən seçilir. Qeyd etdiyim kimi, bu, birbaşa YAP-ın iradəsindən asılıdır”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

# Ziyalılar Forumu niyə yaradıldı, niyə dağıldı?

## Məlumatlara görə, Ziyalılar Forumunun üzvü olmuş bəzi şəxslər Ramiz Mehdiyev işi ilə əlaqədar aparılan istintaq prosesinə cəlb ediliblər; **Qulu Məhərrəmli:** "Rüstəm İbrahimbəyovun siyasi iddiaları sonra ortaya çıxdı..."

**Əli Kərimlinin həbsi ilə bağlı aparılan istintaq prosesinin kökləri 2012-ci ilə gedib çıxır və bu müddət ərzində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) çoxsaylı tanınmış şəxslərin ifadələrinin alındığı bildirilir. İstintaqın diqqət mərkəzində həmin illərdə fəaliyyət göstərmiş ictimai-siyasi təşəbbüslər, xüsusilə 2009-cu ildə yaradılan Ziyalılar Forumu və 2013-cü ildə elan olunan Milli Şuranın fəaliyyəti dayanır.**

Məlumatlara görə, o dövrün ictimai proseslərində yer alan müxtəlif ziyalılar və siyasi xadimlər də istintaqa cəlb olunub və bu qurumların yaranması, fəaliyyəti, eləcə də həmin çağın siyasi prosesləri ilə bağlı suallarla üzləşiblər. Cəmil Həsənli verdiyi ifadə zamanı ona Ziyalılar Forumu haqda da suallar verildiyini deyib. Onun sözlərinə görə, Ziyalılar Forumunun fəaliyyət istiqamətləri,hansı məqsədlə yaradılması, xarici əlaqələrə dair suallar ünvanlanıb.

Qeyd edək ki, Ziyalılar Forumu 2009-cu ildə yaradılıb. Forumun əsas yaradıcıları yazıçı-dramaturq Rüstəm İbrahimbəyov, şair Ramiz Rövşən, alimlər Cəmil Həsənli, Rafiq Əliyev, politoloq Eldar Namazov olub. Azərbaycan Ziyalılar Forumunun əsas məqsədi ölkədə ictimai rəyin formalaşması və qərar qəbul etmə prosesinə təsiri artırmaq üçün ziyalıları toparlamaq olub. Formun üzvləri isə Rüstəm İbrahimbəyov, Ramiz Rövşən, Cəmil Həsənli, professor Rafiq Əliyev, Eldar Namazov, Gültəkin Hacıbəyli, Çingiz Hüseynov, Cavanşir Quliyev, Musa Yaqub, Eldəniz Quliyev, Elçin Şıxlı, Arif Əliyev, Mehman Əliyev, Qulu Məhərrəmli, Ramiz Abutalıbov, Arzu Abdullayeva, Zəfər Quliyev, Erkin Qədirli olub.

Qeyd edək ki, artıq Ziyalılar Forumu fəaliyyət göstərmir. Bu siyahıdakılardan Rüstəm İbrahimbəyov 2022-ci ildə 83 yaşında Moskvada, Çingiz Hüseynov 2024-cü ildə 95 yaşında Qüdsdə, Ramiz Abutalıbov 2022-ci ildə 85 yaşında Moskvada, Musa Yaqub 2021-ci ildə 84 yaşında İsmayıllıda, Zəfər Quliyev 64 yaşında Tiflisdə vəfat edib.

Digərləri hazırda Bakıda yaşayırlar və əvvəlki ictimai aktivlikləri nəzərə çarpmır. Siyahıdakılardan ən gənci Erkin Qədirli Milli Məclisin deputatıdır.

Məlumatlara görə, Ramiz Mehdiyev işi ilə əlaqədar aparılan istintaq prosesinə Ziyalılar Forumunun üzvü olmuş bəzi şəxslər də ifadə vermələri üçün cəlb ediliblər. Həmçinin yayılan xəbərlərə görə, Ziyalılar Forumunun nə üçün yaradıldığı, fəaliyyəti, Ziyalılar Forumunun 2009-cu ildə təsis edilməsinin və fəaliyyətinin Milli Şuranın yaradılmasına hazırlıq olub-olmadığı kimi məsələlər araşdırılır.



**Ziyalılar Forumunun üzvlərindən olmuş professor Qulu Məhərrəmli** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda ziyalılar təşkilatları, ziyalıların formalaşdırdığı təşkilatlar həmişə olub və Ziyalılar Forumunun yaradılması, fəaliyyəti də bu ənənənin davamı idi: "Ziyalılar Forumu siyasi təşkilat deyildi. Ziyalılar Forumunun siyasətdən kənar tamamilə başqa funksiyası var idi. İctimai fəaliyyət olan bu fəaliyyət ölkəmizdə mədəniyyət, təhsil, elm sahəsində müşahidə olunan, ölkəmizin, xalqımızın daha da inkişafına müsbət təsir etməyən problemləri dilə gətirmək, problemlərin həlli üçün təkliflər vermək və həllinə çağırışlar etmək idi. Ziyalılar Forumu bu istiqamətdə çox faydalı işlər gördü, məsələləri mətbuata çıxardı, ictimai faydalı müzakirələr təşkil etdi. Ziyalılar Forumunun yaradılması və fəaliyyəti Milli Şuranın yaradılması üçün hazırlıq rolu oynaya bilməzdi. Rüstəm İbrahimbəyovun siyasi iddiaları sonra ortaya çıxdı.

Ziyalılar Forumunun üzvlərindən fərdi qaydada kimlər siyasətlə məşğul idisə, onları Milli Şuraya dəvət etdilər. Ziyalılar Forumu işıqlı məqsədlər üçün yaradılmışdı və tarixi rolunu oynadı. Onun üzvləri olmuş bəzi şəxslərin sonradan Milli Şurada olması Ziyalılar Forumunu gözdən sala bilməz. Ziyalılar Forumu tarixin bir mərhələsində öz müsbət rolunu oynamış oldu".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# İcra başçılarının korrupsiyasına qarşı yeni metod

## Ekspert deyir ki, Azərbaycan Avropa ölkələrinin korrupsiya ilə mübarizə metodlarından istifadə edə bilər

**Rusiyanın Nijni-Novqorod vilayətində hakimiyyət korrupsiyanı cilovlamaq üçün radikal addım atıb: rüşvət alan məmur barədə məlumat verən hər kəsə həmin məmurun aylıq maaşının 50 faizi qədər mükafat veriləcək. Qanun 2026-cı ilin 1 yanvarından qüvvəyə minəcək və ödənişlər birbaşa qubernatorun qərarı ilə təsdiqlənəcək. Məqsəd aydındır - bürokratik aparatın içərisində görünməz "susqunluq divarı"nı dağıtmaq, məmuru məmura qarşı qoymaq və sistemin daxildən təmizlənməsinə nail olmaq.**



Bu model dünyada yeni deyil. Bir çox ölkələrdə korrupsiyaya dair məlumat verən şəxslər - yəni "whistleblower"lər - ciddi şəkildə qorunur və mükafatlandırılır. ABŞ-də bu mexanizm daha irəli gedir: federal qanunvericilik korrupsiyadan dövlətə dəymiş zərərin müəyyən faizini ifşanı edən şəxsə ödəyir. Cənubi Koreya rüşvət halları barədə məlumat verənləri dövlət səviyyəsində müdafiə edir, onların anonimliyini təmin edir, hətta təhlükəsiz evlər və psixoloji dəstək mexanizmləri belə mövcuddur. Avstraliyada korrupsiya ifşası edən dövlət qulluqçusu öz iş yerində toxunulmaz statusla təmin olunur. Yeni yanaşma birmənalıdır: dövlət öz içindəki çirkabı məhz içəridən təmizləyir.

Azərbaycanda isə korrupsiyaya qarşı mübarizə paralel olaraq həm institusional, həm də hüquqi müstəvidə aparılır. Son günlər daha iki icra başçısının korrupsiya ittihamı ilə həbs olunması göstərir ki, sistem daxilində sərtləşmə prosesi davam edir. Amma sual budur: mübarizə metodları genişləndirilə bilərmi? Yeni yanaşmalar tətbiq olunsa, nəticə daha təsirli ola bilərmi?

**Milli Məclisin deputatı Fazil Mustafa** hesab edir ki, Rusiya modelini Azərbaycana tətbiq etmək məqsədəuyğun deyil (mənbə: haqqin.az). Onun sözlərinə görə, bu yanaşma cəmiyyətdə insanların bir-birinə inamını sarsıdar və sosial psixologiyada əlavə gərginlik yaradardı. Deputat haqlı olaraq vurğulayır ki, korrupsiyanın qarşısını almağın təməl yolu dövlət vəsaitlərinin xərclənməsinə şəffaf ictimai nəzarətdir. Azərbaycanda artıq hər bir dövlət qurumunun yanında ictimai şuralar fəaliyyət göstərir, müxtəlif ictimai nəzarət institutları işə salınıb və bu mexanizm gücləndirilməlidir. Əslində korrupsiyanın aşkarlanması heç də mürəkkəb proses deyil. Dövlət vəsaiti ayrılırsa, onun hara və necə xərcləndiyi barədə ictimai hesabatlıq olmalıdır. Şəffaf tenderlər, açıq büdcə məlumatları, müstəqil auditlərin müntəzəm keçirilməsi və medianın sərbəst araşdırma imkanları korrupsiya ilə mübarizənin əsas sütunlarıdır. Dünyanın uğurlu təcrübəsi göstərir ki, rüşvəti yalnız cəza ilə deyil, sistemin tam şəffaflaşdırılması ilə dayandırmaq mümkündür.

Rusiyanın tətbiq etdiyi model isə daha çox daxili müharibə taktikasına bənzəyir - məmurun məmura qarşı çevrilməsi. Bunun effektiv olub-olmayacağı böyük sualdır. Ancaq bir məqam dəqiqdir: korrupsiya ilə mübarizə artıq dünyada ənənəvi üsullarla aparılmır. Bu səbəbdən Azərbaycanda da müzakirə dairəsinin genişlənməsi, yeni modellərin təhlili və tətbiqi üçün cəsarət tələb olunur.

Korrupsiyanı "gizli düymə" ilə birdən-birə aradan qaldırmaq mümkün deyil. Amma düzgün mexanizmləri birləşdirmək - həm ictimai nəzarəti gücləndirmək, həm hüquqi islahatları dərinləşdirmək, həm də yeni yanaşmalardan çəkinməmək - bu mübarizəni real nəticəyə gətirə bilər.

**Mövzu ilə bağlı iqtisadçı Natiq Cəfərli** "Yeni Müsavat"a bildirib ki, Rusiyada tətbiq edilən model Azərbaycanda keçərli deyil: "Rüşvət elə bir hadisədir ki, iki nəfərin arasında baş verir. Çox vaxt da rüşvəti verən şəxs öz məsələsinin həlli üçün bunu edir. Ona görə də elə bir sistem yaratmaq lazımdır ki, rüşvətlə həll olunacaq məsələlər qanunla həll olunsun. Avropa ölkələrində bu niyə yoxdur? Çünki orada normal məhkəmə sistemi var. Kiminsə haqları pozulanda və ya korrupsiya halları pozulanda məhkəməyə müraciət edir. Rusiyada isə normal məhkəmə sistemi yoxdur. Ona görə də Rusiyada belə bir metodla çalışırlar ki, insanların maddi marağını artırsın. Maddi marağın yaranması isə insanların sui-istifadə etməsinə səbəb olacaq. Məsələn, müəllimə bir qutu şokolad verən valideyn gəlib deyəcək ki, müəllim rüşvət istədi deyə mən də verdim, maaşıma əlavə edin. Bu, həddindən artıq xaotik durum yaradacaq. Azərbaycanda korrupsiya məsələləri həll etmə mexanizminə çevrilib. Məsələn, kiminsə işi gömrükdə keçmirsə, rüşvət verir ki, işini həll etsin. Elə sistem qurulmalıdır ki, problemlər qanunlarla tənzimlənsin. Məhkəmələr o qədər çevik, tez və ədalətli qərarlar verməlidir ki, vətəndaş inansın və məhkəmələr vasitəsilə öz hüquqlarının bərpa olunacağına çalışsın. Azərbaycanda məişət korrupsiyası, demək olar ki, aradan qaldırılıb. "ASAN xidmət"in, DOST -un yaranması məişət korrupsiyasının aradan qalxmasına səbəb oldu. Rusiyada isə məişət korrupsiyası var. Azərbaycanda isə sistemli, böyük korrupsiyaları biz müşahidə edirik. Məsələn, insanlar korrupsiya yolu ilə tenderlər udurlar. Dövlət satınalmaları, evlərin tikintisinə görə, xarici ticarətlə bağlı gömrükdə, vergidə bu korrupsiya halları daha çox önə çıxır".

**Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli** bildirib ki, ölkəmizdə korrupsiyaya son qoymaq üçün islahatlar aparılmalıdır: "Bu baxımdan Rusiyanın həyata keçirdiyi model təqdirəlayiq məsələdir. Azərbaycan qanunvericiliyinə görə, rüşvəti alan da, verən də cinayətkardır. Ona görə də bu iki şəxs bir-birini qoruyur. Lakin Rusiyanın qəbul etdiyi qərarla rüşvət verən şəxs onu alanı ifşa edir və əvəzində mükafat da alır. Ən dəyərli sübut şəxsin öz əli ilə verdiyi rüşvətdir. Jurnalistlər də araşdırma edib, faktlar toplayıb təqdim edə, bu model əsasında pul qazana bilərlər.

Hesab edirəm ki, ölkəmizdə bu model tətbiq edilə bilər. Biz bəzən real mübarizə addımını psixoloji yönümdən izah edirik. Bununla da rüşvətxor məmurları dolayısı ilə müdafiə edirik. Bəzən deyirlər ki, belə bir model cəmiyyətimizdə qarşıdurma yaradar. Qarşıdurma və mübarizə olmadan inkişaf da mümkün deyil".

Ekspert deyir ki, Azərbaycan Avropa ölkələrinin korrupsiya ilə mübarizə metodlarından istifadə edə bilər: "Amerikada bu sistem o qədər də güclü deyil. Çünki ABŞ-də korrupsiya faktlarına çox tez-tez rast gəlinir. Amma Avropa modeli istifadə üçün yararlıdır. Danimarkada saxta xarici pasport almağa görə daxili işlər naziri istefa verir. Çünki bunu ondan komanda tələb edir, deyir ki, xalq bizə etimad göstərib".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabrt 2025

**Azərbaycan və Ermənistanın baş nazirin müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın rəhbərlik etdiyi hökumət komissiyaları arasında Qəbələdə mediaya qapalı keçirilən görüşdə əldə edilən razılaşmaların bəzi təfərrüatları bəlli olub. Məlum olub ki, Qəbələdə delimitasiya və demarkasiya komissiyalarının növbəti iclasının Ermənistanda keçirilməsi razılaşdırılıb.**

# Qəbələdəki qapalı görüş - Bakı şərh vermir

## Sərhədlərin müəyyənləşməsi prosesi daha çox vaxt tələb edəcək və bu səbəbdən nə zaman başa çatacağını proqnozlaşdırmaq son dərəcə çətin olacaq



Sərhədlərin müəyyənləşməsi Azərbaycan, Ermənistan və Gürcüstan sərhədlərinin kəsişməsindən başlayacaq və şərti sərhədin bütün uzunluğu boyunca Zəngilana qədər davam edəcək. Zəngəzur dəhlizi ilə kommunikasiyaların tikintisinə gələn il başlanması nəzərdə tutulduğundan, infrastrukturun layihələndirilməsi və sərhəd-keçid məntəqələrinin yerləşdirilməsi üçün ilkin dəqiqləşdirmələr sərhədin cənub hissəsində aparılmalıdır. Bunu nəzərə alaraq Mustafayev-Qriqoryan komissiyaları artıq cənubda iclas keçirərək, dəhlizin Naxçıvan və Zəngilandan mümkün giriş-çıxış məntəqələrinə baş çəkiblər. Bu səfər nəqliyyat dəhlizinin infrastrukturunun yerləşdirilməsi ilə əlaqədar fövqəladə demarkasiya tələb oluna bilən ərazilərin qiymətləndirilməsi ilə birbaşa bağlı olub. Hələ noyabrın ortalarında Ermənistan baş nazirinin müavini Mher Qriqoryan da TRIPP layihəsinin həyata keçirilməsinə hazırlıq çərçivəsində delimitasiya və demarkasiya üçün “fövqəladə tədbirlər”in mümkünlüyünü istisna etmirdi. Lazımi razılaşmalar əldə olunarsa, tikintiyə gələn ilin əvvəlində başlanılacaq və iki il ərzində başa çatdırıla bilər. Bu müddət ərzində Zəngəzur dəhlizinin potensial giriş-çıxış məntəqələrində cənubda şərti Ermənistan-Azərbaycan sərhədinin bütün hissələrinin delimitasiyası və demarkasiyasını başa çatdırmaq nəzəri cəhətdən mümkündür. Bununla belə, ümumi şimal-cənub demarkasiyası prosesi əhəmiyyətli dərəcədə daha çox vaxt tələb edəcək, bu da onun başa çatacağını proqnozlaşdırmaqda son dərəcə çətin olacaq.

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru, hüquqşünas Sahib Məmmədov** “Yeni Müsavat”a bu barədə açıqlamasında bildirdi ki, kiçik, amma çox vacib bir hissədə sərhədlərin müəyyənləşdiyini xatırlatdı: “Amma düşünmürəm ki, bu iş Zəngəzur dəhlizi üzrə yollar istismara veriləna qədər başa çatmış olsun. Bu, uzun danışıqlar, razılaşmalar tələb edən prosesdir və prosesin həm diplomatik, həm texniki tərəfləri var. Yeni razılaşmalar planlar, xəritələr, ölçmələr və s. proseslərlə müşayiət olunacaq və mühəndis-texniki qurğuların inşası ilə başa çatacaq. Əsas məsələ delimitasiya prosesləridir. Demarkasiya işləri razılaşdırılan sahələrdə qısa müddətdə təmin olunacaq”.

Zəngəzur dəhlizi və ya Tramp marşrutu məsələsinə gəldikdə, STM təmsilçisi qeyd etdi ki, bu istiqamətdə də real fəaliyyətlər görünməkdədir: “Ermənistan tərəfi ilə ABŞ təmsilçiləri artıq görüşüblər. Məsələnin əvvəlcə hüquqi tərəfləri, sonra layihələndirmə, tikintini kimin aparması, kimin istismar edəcəyi məsələləri həll olunmalıdır. Bu, Ermənistan və ABŞ-yə aid işlərdir. Bizdə isə hər iki tərəfdən, həm Zəngilan, həm Naxçıvan tərəfdən infrastruktur, demək olar ki, hazırdır. Yəni biz tərəfdə işlər daha tez başa çatacaq. Hələlik Ermənistan tərəfdə də müəyyən hərəkətlər müşahidə olunur. Ermənistanda bu məsələ, bizdən fərqli olaraq, yalnız tikinti məsələsi deyil. Daxili və xarici qüvvələrin Ermənistan hakimiyyətinə basqıları davam edir. Ona görə də biz tam əminliklə deyə bilmirik ki, yollar nə vaxt hazır olacaq. Ehtimal olunan vaxt 2028-ci ildir, əgər Ermənistan hakimiyyətinin siyasi iradəsi maneələri dəf edə bilərsə...”

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** isə bildirdi ki, Azərbaycan və Ermənistanın baş nazirin müavinləri mövcud məsələlərin konkret həlləri ilə məşğuldurlar: “Birincisi, bu sərhədlərin delimitasiya və demarkasiyasının davam etdirilməsidir. İkincisi, ”Tramp yolu"nun reallaşması üçün zəruri addımların atılmasıdır. Sərhədlərin müəyyənləşməsi iki ölkənin şimal sərhədlərindən başlamışdı. Bunu Zəngəzur dəhlizinin keçdiyi istiqamətdə davam etdirməyə ehtiyac var. Çünki dəhliz boyu giriş və çıxış məntəqələri müəyyənləşdirilməlidir. Bunu dəhlizin tikintisi ilə paralel həyata keçirmək mümkündür".

E.Şahinoğlu qeyd etdi ki, Ermənistanın baş naziri Nikol Paşinyan bütün diqqətini gələn ilin iyun ayında keçiriləcək parlament seçkilərinə yönəldib: “Paşinyan ölkəsində müxtəlif qüvvələrlə mübarizə aparır. Ermənistan hökumətinin Azərbaycanla həllini gözləyən məsələlərdə ləngliyi bununla əlaqədardır. Halbuki Ermənistan ərazisində ”Tramp yolu"nun tikintisinə başlanılması, o cümlədən sərhədlərin delimitasiya və demarkasiya prosesinin davamı seçkiöncəsi Paşinyanın mövqelərini gücləndirə bilər".

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 3 dekabr 2025-ci il tarixində Vyanada keçirilən ATƏT-in Nazirlər Şurasının 32-ci iclası çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb. Xarici İşlər Nazirliyindən bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə arasında möhkəm dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə inkişafı məsələləri, habelə geniş bölgədə mövcud təhlükəsizlik vəziyyəti, regional sülh və sabitliyin təmin olunması istiqamətində görülən tədbirlər müzakirə olunub. Bu çərçivədə iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə davam etməsinin əhəmiyyəti vurğulanıb. Tərəflər iqtisadiyyat və ticarət, energetika və nəqliyyat-kommunikasiya layihələri, o cümlədən regional bağlantı təşəbbüslərinin reallaşdırılması ilə bağlı perspektivləri nəzərdən keçiriblər. Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edərək, Azərbaycan və Türkiyənin bir-birini qarşılıqlı şəkildə dəstəkləməsinin regional əməkdaşlığa müsbət töhfə verdiyini vurğulayıblar. Nazirlər həmçinin digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar. İstisna deyil ki, nazirlərin görüşündə sərhəd mövzusu da müzakirə edilib. Bu yerdə xatırladaq ki, H.Fidan bir müddət əvvəl sülh müqaviləsi imzalandıqdan sonra sərhəd qapılarının açılacağını bildirmişdi.

Bakı və İrəvan arasında artan təmaslar fonunda Ankara ilə də intensiv əməkdaşlıq sülh prosesini irəli aparmaq üçün əlavə imkanlar yaradır. Xüsusilə də sərhədlərin açılması məsələsində Bakı və Ankaranın mütəmadi məsləhətləşmələr apardığı şübhə doğurmur. E.Şahinoğlu qeyd etdi ki, “Bloomberg” Agentliyinin adı çəkilməyən məlumatlı mənbəyə istinadən Türkiyənin növbəti altı ay ərzində Ermənistanla quru sərhədini açmağı nəzərdən keçirəcəyi xəbərinin yayılması Paşinyanın xeyrinədir: “Anonim mənbənin məlumatına görə, Ermənistanın Azərbaycanla diplomatik münasibətlərdə əldə etdiyi irəliləyiş və Türkiyə ilə quru sərhədlərinin açılması baş nazir Nikol Paşinyana iyun seçkilərində kömək edə bilər. Azərbaycan Türkiyənin Ermənistanla sərhədin açılmasının əleyhinə deyil. Buna baxmayaraq, Türkiyənin xarici işlər naziri Hakan Fidan Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmasından sonra sərhədin açılmasını mümkün hesab etdiyini deyib. ”Bloomberg" agentliyinin məlumatı da Ermənistan hökumətinin Azərbaycanla dialoqda fəallığını artırmasının əhəmiyyətini göstərir".

Bu məsələlərlə bağlı Azərbaycan XİN-lə əlaqə saxladıq. Qurumdan bildirildi ki, sözügedən məsələlərlə bağlı şərh verilmir.

❑ **E.Paşasoy,**
**“Yeni Müsavat”**



# Britaniyanın müdafiə naziri İlham Əliyevin qəbulunda

## Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin intensivləşdiyi müşahidə edilir

**Son aylar Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin intensivləşdiyi müşahidə edilir. Məlumdur ki, bu ilin əvvəlində Böyük Britaniya Azərbaycana ilk dəfə müdafiə attaşesi təyin edib ki, bu da yeni geosiyasi reallıqlarla bağlıdır.**

Bu ilin oktyabr ayında isə Böyük Britaniya Azərbaycan və Ermənistana silah tədarükü ilə bağlı embarqonu tamamilə ləğv edib.

Bəyanata əsasən, sülhün irəlilədilməsi və bu ilin avqustunda Vaşinqtonda keçirilən sammitin tarixi nəticələrini nəzərə alaraq, Böyük Britaniya hesab edir ki, ATƏT-in 1992-ci ildə tərəflərə silah və sursat tədarükünün dayandırılması ilə bağlı tövsiyə etdiyi embarqo artıq öz aktuallığını itirib:

“Buna görə də Böyük Britaniya Ermənistan və Azərbaycana silah embarqosunu tamamilə ləğv edəcək. Bu qərar Böyük Britaniyaya təhlükəsizlik və müdafiə sahəsində həm Ermənistan, həm Azərbaycanla tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə imkan verəcək”.

Dekabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib. Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ilk növbədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırıb.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladıb.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirib.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxunub. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.


Mark Rütte

## NATO-nun "B planı" yoxdur

**NATO-nun ABŞ-nin Ukraynaya silah tədarükünü dayandırması ehtimalına qarşı hazırladığı alternativ, yəni "B planı" mövcud deyil.**

Bunu alyansın baş katibi Mark Rütte bildirib.

"Belə bir planım yoxdur. Düşünmürəm ki, biz "B planı" barədə düşünməliyik", - Rütte vurğulayıb.

Bununla yanaşı, NATO-ya üzv ölkələr, o cümlədən Kanada, Almaniya, Niderland, Norveç və Polşa PURL (Ukraynanın prioritet ehtiyaclarının siyahısı) çərçivəsində Ukraynaya dəstək üçün əlavə vəsait ayırır. Proqrama alyans üzvlərinin 2/3-dən çoxu qoşulub.

Mark Rütte 2026-cı ilə qədər öhdəliklərinin icrasını sürətləndirməyə çağırıb.

"NATO üzvləri tərəfindən maliyyələşdirilən PURL çərçivəsində ölkəyə kritik əhəmiyyətli silahlar, o cümlədən cəbhə xəttini saxlamaq və əhalini qorumaq üçün HHM sistemləri göndərilir. Ukrayna inanılmaz dözümlülük nümayiş etdirir, Putin hesab edir ki, yardım dayanana qədər vaxt qazana bilər, lakin bu, baş verməyəcək", - deyə Rütte qeyd edib.



## Azərbaycan-Macarıstan hərbi əməkdaşlıq müzakirələri

**Müdafiə Nazirliyi ilə Macarıstan Respublikası Müdafiə Qüvvələri arasında 2025-ci il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin hərbi tibb sahəsi üzrə mütəxəssisləri arasında görüş keçirilib.**

Azərbaycan və Macarıstan arasında hərbi tibb sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi, təcrübə mübadiləsi və peşəkar hazırlığın artırılması istiqamətində işçi görüşlərin davam etdiriləcəyi qeyd olunub.

Görüşdən sonra Macarıstan nümayəndə heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını və digər hərbi tibb müəssisələrini ziyarət edib, yaradılan şəraitlə yaxından tanış olublar.

## Rusiya-NATO Şurası rəsmən ləğv edilib

**"Rusiya-NATO Şurası" artıq mövcud deyil. Bunu Polşanın xarici işlər naziri Radoslav Sikorski Şimali Atlantika Alyansının xarici işlər nazirlərinin toplantısından sonra bildirib.**

Onun sözlərinə görə, alyansın baş katibi Mark Rütte iclasda şuranın fəaliyyətinin tamamilə dayandırıldığını rəsmən bəyan edib.

Nazir bildirib ki, şura Avropa təhlükəsizliyinin Rusiya ilə birlikdə formalaşdırıla biləcəyinə inanılan dövrdə yaradılmışdı, lakin hazırkı reallıq tam əksini göstərir:

"Bu gün Avropanın təhlükəsizliyi Rusiyaya qarşı qurulur".

Qeyd edək ki, "Rusiya-NATO Şurası" 2002-ci ilin mayında İtaliyada təsis olunmuşdu. "29+1" formatlı mexanizm çərçivəsində Moskva və NATO ölkələri təhlükəsizlik, silahlara nəzarət, terrorla mübarizə və insidentlərin qarşısının alınması kimi məsələləri bərabər əsaslarla müzakirə edirdilər. Lakin son illər şura praktik olaraq fəaliyyət göstərmirdi.

# NATO Bakını "cənub cinahına" qoşur?

## Şimali Atlantika blokunun Cənubi Qafqazdakı ofisinin rəhbəri Aleksandr Vinnikov Azərbaycana gəlib; partlayıcı qurğulara qarşı mübarizə mövzusunda seminar-məşğələ keçirilir




**2025-ci ilin NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Birgə Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Əldə düzəldilmiş partlayıcı qurğulara qarşı mübarizə" mövzusunda seminar-məşğələ keçirilir.**

Təlimlərdə Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsinin və onun tabeliyindəki hərbi hissələrdə xidmət edən hərbi qulluqçuların, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin mühəndis ixtisaslı zabitləri iştirak edirlər. Keçirilən məşğələ zamanı iştirakçılara müxtəlif mövzularda brifinqlər təqdim edilir.Seminar-məşğələ dekabrın 5-dək davam edəcək.

Maraqlıdır ki, NATO-nun Cənubi Qafqazdakı ofisinin rəhbəri Aleksandr Vinnikov da Azərbaycana gəlib. Bunu Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev "Facebook"da yazıb. "Biz təhlükəsizlik vəziyyətini, mövcud çağırışları və əməkdaşlığın dərinləşdirilməsi imkanlarını müzakirə etdik. Ukraynanın və tərəfdaşlarımızın mövqelərinin əsas istiqamətlərdə uzlaşdırılması vacibdir", - deyə diplomat qeyd edib.

Onu da xatırladaq ki, 6-7 noyabr 2025-ci il tarixlərində NATO-nun Şimali Atlantik Şurası səfirlərindən ibarət nümayəndə heyəti ilk dəfə olaraq Azərbaycana səfər edib. Nümayəndə heyətinə Türkiyə, Yunanıstan, Macarıstan, Monteneqro, Fransa, Niderland, Şimali Makedoniya, Norveç, Slovakiya, Sloveniya, İsveç, Çex, Portuqaliya, İspaniyanın NATO-dakı daimi nümayəndələri, həmçinin ABŞ və Fransanın NATO-dakı daimi nümayəndələrinin müavinləri daxil idi.

Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə, habelə xarici işlər naziri Ceyhun Bayramov, xarici işlər nazirinin müavini Fariz Rzayev, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb, həmçinin ADA Universitetini ziyarət edib.

1994-cü il mayın 4-də Belçikanın Brüssel şəhərində NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramının çərçivə sazişinin imzalanması ilə Azərbaycan-NATO münasibətlərinin beynəlxalq müstəvidə təməli qoyulub. Bununla da ölkəmiz NATO hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrların hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək imkanları qazanıb. Azərbaycan elə ilk gündən bu proqrama qoşulmaqla özünü etibarlı və nümunəvi tərəfdaş kimi göstərməyə müvəffəq olub.

Bakı-Moskva münasibətləri gərgin olan vaxt Rusiya Azərbaycanın NATO ilə əlaqələrinə dair xəbərlərinə qısqıclı reaksiyası ilə də diqqət çəkirdi. Kremlə yaxınlığı ilə tanınan media Azərbaycanın Qarabağda əldə etdiyi qələbədən sonra Qərbə yönəldiyini və NATO ilə daha dərin əməkdaşlıqlar barədə düşündüyünü iddia edirdi.

Sirr deyil ki, zəngin enerji resurslarından tutmuş müasir, döyüş qabiliyyətli orduya, eləcə də çoxvektorlu xarici siyasətə qadir Azərbaycan NATO-nun "cənub cinahında" mərkəzi aktora çevrilib.

Bu dövr ərzində müxtəlif proqramlar, kurslar olub, təcrübə mübadiləsi aparılıb, əməkdaşlıq getdikcə genişlənməkdədir. Amma bizim NATO dövləti olan Türkiyə kimi müttəfiqimiz var. Ən əsası NATO-ya üzvlük qədər təhlükəsizliyə təminat verən Şuşa Bəyannaməsi var. Bunun özü elə alyansa qoşulmaq qədər böyük əhəmiyyəti olan sənəddir. Yeri gəlmişkən, Türkiyənin İzmir şəhərində "Doğu Akdeniz - 2025" (Şərqi Aralıq dənizi - 2025) dəvət təlimi keçirilib.

Təlimdə qardaş ölkənin hərbi qulluqçuları ilə yanaşı Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup heyəti, ABŞ-nin terrorizmə qarşı təhlükəsizlik qrupu və Pakistan Ordusunun dəniz patrul təyyarəsi iştirak ediblər. Təlimdə qarşıya qoyulan tapşırıqların icrası zamanı iştirakçı ölkələrin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Qeyd edək ki, dəvət təliminə on doqquz ölkədən hərbi qulluqçular müşahidəçi qismində qatılıblar.

Eyni zamanda Azərbaycan nüvə dövləti Pakistanla müttəfiqdir. Bu mənada Şimali Atlantika Alyansına üzvlük müsbət tərəfləri ilə yanaşı, ciddi problemlər də gətirə bilər. Əksinə, Türkiyə və Pakistanla hərbi müttəfiqliyi daha da möhkəmləndirməli, bir ittifaqa çevirməliyik.

Yada salaq ki, NATO hərbi təşkilat olaraq "soyuq müharibə" dövründə 1949-cu il aprelin 4-də yaradılıb. Yaradılarkən 12 dövlətdən ibarət olan, indi, sıralarında keçmiş postsovet ölkələrindən 3-ü daxil olmaqla, 32 dövləti birləşdirir.

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov** "Yeni Müsavat"a şərhində bildirdi ki, hazırda Azərbaycanın NATO üzvü olmaq qərarı və hədəfi yoxdur: "Bu mövqe Azərbaycanın siyasi və hərbi rəhbərliyi tərəfindən də zaman-zaman bəyan edilib. Azərbaycan-NATO əməkdaşlığı 30 ildən artıqdır davam etdirilir. Azərbaycan Ordusu keçmiş sovet ordusu sistemindən Türkiyə ordusu modelinə keçib. Türkiyə ordusu isə NATO-nun ikinci ən güclü ordusudur. Bu o deməkdir ki, Azərbaycan NATO-nun rəsmi üzvü olmadan da ordusunu NATO ordusu standartlarına uyğunlaşdıra bilər və əslində türk ordusu modelinə keçid həm də özündə bunu ehtiva edir".

Ekspert onu da dedi ki, Azərbaycan Ordusunun Türk-NATO ordusu modelinə inteqrasiya olması Alyansa üzv olmayan, Alyansla rəqabət aparan və gərginliklər yaşayan dövlətlərə qarşı deyil: "Bilirsiniz ki, postsovet respublikalarının, o cümlədən Azərbaycanın NATO ilə əlaqələrinin dərinləşməsini daha çox Rusiya daim qıcıqla qarşılayır. Rusiya istənilən keçmiş SSRİ respublikasının NATO-ya üzvü olmasını NATO-nun Rusiyaya doğru genişlənməsi və Rusiyanı sanki mühasirəyə alması kimi qəbul edir. Bu cür yanaşdığı üçün də Rusiya NATO üzvü olmaq istəyən, Alyansla əməkdaşlığı dərinləşdirmək xətti götürən respublikalara düşmən kimi baxır. Biz bunu Pribaltika ölkələrinin, ən son isə Ukraynanın timsalında gördük. Ukraynanın NATO üzvü olacağını bəyan etməsindən sonra Rusiya bu ölkəyə düşmən kəsildi və bu düşmənçiliyin nəticələri, təəssüf ki, bu gün ortadadır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

# "20 il əvvəl deyirdilər ki, guya kartof-soğan biznesim var"

## Cavanşir Paşazadə: "...Mənim də hüzürümə kim gəlsə, onun qarşısına ancaq çay qoysunlar"

**"Deməzdim ki, bölgələrdə hər şey qaydasındadır. 2005-ci ildə hər kənddə 100-120 ev var idisə, ində 200-250 ev var. Kəndlər bir-biri ilə birləşdikcə evlərin yol, su, qazla bağlı təminatı da çətinləşir. Hər keçən il müxtəlif problemlər dilə gətirilir. Büdcə müzakirəsində də bölgə ilə bağlı ən ciddi məsələləri mən qaldırdım. Hökumətlə dövlət arasında fərq var. Biz bu problemləri hökumət qarşısında qaldırmalıyıq. Bəziləri deyir ki, problemi dilə gətirmək dövlət siyasətinə qarşı gəlməkdir. Xeyr, tam əksidir, problemi demirsənsə, deməli, dövlət siyasətini dəstəkləmirsən. Bu gün Gil, Veravul, Xıl kəndlərini və Masallı rayonunu birləşdirən yolların təmirə ehtiyacı var və bunun üçün əlavə büdcə vəsaitinin ayrılması zəruridir. Kənd təsərrüfatında texnika və gübrənin gecikdirilməsi səbəbindən fermerlər çətinliklərlə üzləşir, bəzi kəndlərdə tibb məntəqələri bərbad vəziyyətdədir, bir sıra məktəblərdə isə, ümumiyyətlə, istilik sistemi yoxdur". 76 saylı Lənkəran - Masallı seçki dairəsinin deputatı Cavanşir Paşazadə modern.az-a müsahibəsində belə deyib.**



Deputat deyib ki, talış dilini bilir və seçiciləri ilə lazım olduqda o dildə danışır: "Əlbəttə, bilirəm. Talış olanla talış dilində, bu dili danışa bilməyənlərlə isə Azərbaycan dilində danışıram". O, övladları barədə də danışıb: "Bir qızım, iki oğlum var. Bir oğlum polisdə, yüksək rütbədədir. Qızım filoloqdur, müəllim işləyir. Digər oğlum isə İstanbulda yaşayır, orada işləyir. O, burada məhkəmədə işləyirdi. Daha sonra Böyük Britaniyaya gedib dəniz brokerliyi sahəsində təhsil aldı, orada bir müddət logistika ilə məşğul olandan sonra İstanbulda öz şirkətini yaratdı. Nəvələrimin hamısı oxuyub. Onlardan üçü İstanbulda yaşayır, iki nəvəm isə təhsilləri ilə bağlı İngiltərədədirlər. Bir nəvəm İstanbulda oxuyub, indi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında sektor müdiri işləyir. Digərləri balacadır. Ən balaca nəvəmin adı Esmamələkdir".

Deputat yasların sadə keçirilməsinə münasibətdə bildirib: " İndi sadə edən də var, etməyən də. Əvvəl 3, 7 mərasimləri ayrı-ayrılıqda keçirilirdisə, indi ikisini birləşdirirlər. Mənim atam deyərdi ki, ömrüm boyu yas mərasimlərinə getmişəm, hamısında da gətirib qabağıma bir stəkan çay qoyublar. Mənim də hüzürümə kim gəlsə, onun qarşısına çay qoysunlar. Belə də olmalıdır. Əks halda yas mərasiminə heç kəs gəlməyəcək".

O nə özünün, nə də qardaşının biznesi olmadığını deyib: "Hansı bizneslə məşğul ola bilərik ki? Bu boyda dövlət qurmuşuq, belə bir şey olsa, dövlət buna əsla göz yummaz. Şeyx ölkəni dünyanın dörd bir yanında təmsil edib. Belə hal olsaydı, onu Azərbaycanı təmsil etməyə qoymazdılar. Hələ 20 il əvvəl deyirdilər ki, guya kartof-soğan biznesi ilə məşğulam. Sonra bir ara xalça biznesində adım hallandı. İndi görürəm ki, daha yer qalmayıb. Kimin yeri itib mənim adımı verirlər. Bu yaxınlarda televiziyadan zəng etdilər ki, sizin restoranınızda işləyən 5 nəfər şikayətçidir. Mənim hansı restoranım var ki? Amma müxbir deyir ki, bizə məlumat veriblər ki, sizin restoranınızdır, bu da gedib inanır. Hələ bir ara gömrükdən mal keçirmək istəyirdilər, mənim adımı verirdilər. Biz artıq belə şeylərə öyrəşmişik".

C. Paşazadə QMİ sədrinin Ramiz Mehdiyevlə əlaqəsi olub-olmaması barədə də danışıb: " Allahşükür Paşazadə Şeyxülislam olub. Hər ikisi müəyyən vəzifələr yerinə yetiriblər. Ola bilsin ki, münasibətlər dövlətlə bağlı məsələlərin müzakirəsi kontekstində ola bilər. Başqa mövzu ola bilməz".

"Əvvəllər məscidlərə axundu Qafqaz Müsəlmanları İdarəsi təyin edirdi. Sonra bu səlahiyyət idarədən alındı. İndi bu səlahiyyəti Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yerinə yetirir. İcrada hər hansı fərqləri görürsünüzmü" sualına belə cavab verib: "Xeyr, hər hansı bir fərq görmürəm. Səlahiyyətlərin alınması deyəndə ki, o, ciddi bir şey ifadə etmir. Elmi tərəfini Qafqaz Müsəlmanları İdarəsi yoxlayır, əmrini isə Dini Komitə verir. Biz gərək şəriətin işinə qarışmayaq. Azərbaycanda din dövlətdən ayrıdır". Cavanşir Paşazadə bu məsələdə Şeyxin ona heç bir narazılığının olmadığını da qeyd edib:

"Biz Şeyxlə belə məsələləri müzakirə etmirik. Siz ola bilər ki, onu yaxından tanımırsınız".

Həccə getmək məsələsinə hələ də Qafqaz Müsəlmanları İdarəsinin nəzarətindən danışan Cavanşir Paşazadə vurğulayıb ki, Qafqaz Müsəlmanları İdarəsinin razılığı ilə kvota verilir. Hər dövlətdə bu, belə tənzimlənir. Bizdə kvota çox azdır - 500-600 nəfər üçün yer ayrılır.

Deputat deyib ki, ailəsində Şeyxin yolunu davam etdirə biləcək biri yoxdur: "Bizim ailəmizdə əzəldən dinə bağlılıq olub. Amma nəslimizdə tam dindar adam olmayıb. Şeyxin ailəsi Quran oxuyur, qızları namaz qılır. Amma ailədə Şeyxin yolunu davam etdirə biləcək biri yoxdur".

# Bu deputatların mandatı ləğv ediləcək




**Naxçıvan Ali Məclisinin Daxili Nizamnaməsinə dəyişiklik edilib. Dəyişikliyə əsasən, deputatların iclaslarda iştirak qaydaları daha sərtləşdirilib.**

Yeni dəyişikliyə əsasən, deputatın üzrsüz səbəbdən iştirak etmədiyi iclasların sayı 10-dan 5-ə endirilib.

Mövcud qaydaya görə, Ali Məclisin sədri Ali Məclisin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Ali Məclisin 10 iclasında üzrsüz səbəbdən iştirak etməyən Ali Məclisin deputatı barəsində İntizam komissiyasına təqdimatla müraciət edir.

Yeni dəyişikliyə əsasən, deputatın mandatının itirilməsi proseduru daha erkən işə düşəcək. Yəni 5 iclasda üzrsüz səbəbdən iştirak etməyən deputatın mandatı ləğv edilə bilər.

Bunun üçün Ali Məclisin sədri İntizam Komissiyasına təqdimatla müraciət edir. İntizam Komissiyası 2 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə, Ali Məclisin deputatı barəsində deputat səlahiyyətlərinin itirilməsi, intizam tədbirinin tətbiq edilməsi haqqında rəy qəbul edir və Ali Məclisin müzakirəsinə çıxarır. Bu məsələyə Ali Məclisin növbəti iclasında səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan deputatın iştirakı ilə baxılır. Həmin deputatın iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır.

İclasda iştirak edən Ali Məclisin deputatları yalnız deputat səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, İntizam Komissiyasının üzvlərinə suallar verə bilər və deputatın səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Ali Məclisin deputatının səlahiyyətlərinin itirilməsi barədə Ali Məclisin qərarı azı 23 səs çoxluğu ilə qəbul edilir.



# Eldar Mansurovun oğluna yeni vəzifə təyinatı

**İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondunun İdarə Heyətinin sədri vəzifəsinə təyinat olub. Bu vəzifəyə Ülvi Mansurov təyin olunub.**

O, 13 dekabr 1983-cü ildə Bakı şəhərində anadan olub. Azərbaycan Dövlət İqtisad Universitetində bakalavr və magistr dərəcələri, 2015-ci ildə isə Böyük Britaniyanın Uorvik Universitetinin Biznes Məktəbində MBA dərəcəsi alıb.

2013-cü ildə Azərbaycanda fəlsəfə doktoru, 2024-cü ildə isə Uorvik Universitetində biznes idarəçiliyi üzrə doktorluq dərəcəsinə yiyələnib.

Əmək fəaliyyətinə Azərbaycan Beynəlxalq Bankında (ABB) başlayıb və 2001-2012-ci illərdə ABB-də müxtəlif vəzifələrdə çalışıb.

2012-ci ildə "Bank Technique" ASC-nin İdarə Heyətinin sədri, 2015-ci ildə isə ABB-nin İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin olunub.

2017-ci ildən "Azərpoçt" MMC-nin baş direktoru, 2018-ci ildən Vergilər Nazirliyinin İqtisadiyyat sahələrinin analitik təhlili və ekspertizası departamentinin baş direktoru, 2020-ci ildən sonuncu təyinatadək isə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin icraçı direktoru vəzifələrində çalışıb.

Qeyd edək ki, Ü.Mansurov məşhur bəstəkar Eldar Mansurovun oğludur.

# Nazir rəisi işdən çıxardı

**Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin Nizami Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi, polkovnik-leytenant Əlfağa Ağayev vəzifəsindən azad edilib.**

"Qaynarinfo" xəbər verir ki, bununla bağlı fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov əmr imzalayıb.

Nazirin digər əmri ilə Əlfağa Ağayev Dövlət Yanğından Mühafizə Xidmətində Yanğından mühafizə şöbəsinin rəisi təyin olunub.

Kəmaləddin Heydərov daxili xidmət mayoru Ceyhun Ramazanovu Nizami Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi təyin edib. Ona polkovnik-leytenat rütbəsi verilib.

# AMEA prezidenti o açıqlamanı verdi

**Azərbaycan Milli Elmlər Akademiyası Ramiz Mehdiyevlə bağlı yaranmış vəziyyətə görə dərin təəssüf hissi keçirir.**

Bu sözləri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli deyib.

İsa Həbibbəyli bildirib ki, məhkəmə qərarından sonra Ramiz Mehdiyevin həqiqi üzvlük məsələsinə baxılacaq.

Qeyd edək ki, Bakı şəhəri Səbayel Rayon Məhkəməsi Ramiz Mehdiyev barədə cinayət işi üzrə qərar qəbul edib. Qərara əsasən, məhkəmə xüsusilə ağır cinayət əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilmiş Ramiz Mehdiyev barədə verilmiş vəsatəti təmin edərək, 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçib. O, Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olunur.

Xatırladaq ki, Ramiz Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019-2022-ci illərdə isə AMEA-nın prezidenti olub (Mənbə: APA).

YENİ MÜSAVAT
N 221(8831) 5 dekabr 2025



# Uşaqları polisə verən psixoloq

Zamin HACI
zaminhaci@gmail.com

"Bekarçılıq bütün qəbahətlərin anasıdır"
*(hansısa bekar müdrik)*

**Sovetlər dağılan vaxt yazıçı və şairlərimiz arasında özünü guya dissident elan etmək dəbə minmişdi. Deyirdilər anadangəlmə millətçi olmuşlar, Kommunist Partiyasına nifrətlə yanaşmışlar. Hətta az qalırdılar desinlər ki, o dövrdə hökumətdən ev, pul, medal, maşın, mükafat və sairəni də qəsdən alırdıq, istəyirdik bu üsulla Sovetlərin iqtisadi gücü azalsın. Ən az alanın Komsomol mükafatı var idi. Bəzən şair-yazıçılar bu mükafatlar üstündə, sözün əsl mənasında, qırğına çıxırdılar.**

İndi Mədəniyyət Nazirliyi 50 min manatlıq illik kitab mükafatı elan edəndə həmin dövr yada düşür. Bununla ədəbiyyat inkişaf edəcəkmi? Əksinə, beş-on kitab oxuyanı da itirəcəyik. Ara qarışıb, məzhəb itəcək, qardaş qırğını düşəcəkdir. İdarə bir-iki teatrda narazılıqları tənzimləməyə çətinlik çəkirdi, gəl gör AYB-nin 3 min üzvü qara canavar kimi ağzını açıb mükafat istəsin...

Yeri gəlmişkən, nazirlik illik ədəbiyyat, kitab mükafatını Britaniyanın ünlü "Buker" mükafatı ilə müqayisə edib, ona bənzəyəcəyini açıqlayıb (Təvazökarlığa nə demək olar? Təvazökarlıq da mədəni insanın əlamətlərindən biridir). Ancaq "Buker"i dövlət maliyyələşdirmir, özəl sponsorları var. Həmçinin kralın və ya Britaniya baş nazirinin imzasıyla təqdim edilmir. Bunlar ciddi fərqdir.

O cümlədən oxşarlıq tam olsun deyə milli kitab ödülümüzə "Bekar" adı qoymaq lazımdır. Onsuz Azərbaycanda camaat yazı-pozu ilə məşğul olmağı ən böyük bekarçılıq sayır. İstənilən ailədə, məsələn, icra hakimiyyətində sürücü işləyən üzvün hörməti şeir yazan üzvdən min dəfə artıqdır.

Digər tərəfdən, bu mükafat əslində dövlət təltifində paralellik, israfçılıq yaradır. Çünki onsuz hökumət AYB xəttiylə özü seçdiyi yazıçılara il ərzində daim görüm-baxım edir. Məsələn, hansısa şairə bazar dəyəri 100 min manatı keçən ev verirlər. Yaxud fərdi təqaüdlər siyahısı vardır. Bunlar artıq mükafat sayılmır? Necə deyərlər, qudurasan qurbağa...

Paralellik başqa sahələrdə də özünü göstərir. Bu yaxında qəribə bir şey öyrəndik, sən demə Bakıda "Qorxu evi" adlı məkan varmış. Uşaq-muşaq ora girir, işıqlar sönür, aktyorlar bunları qorxudurmuş. Bir uşağın başı partlayandan sonra şikayət edilmişdi.

Hamımızda istər-istəməz sual yarandı: qorxuya xüsusi yer ayırmağın mənası var idimi, əgər bütün həyatımız qorxu-ürkü içində keçirsə? Haçan xəbərləri açsan, o bunu baltaladı, bu onu doğradı, filankəs yandı, behmənkəsi xəstəxanada öldürdülər, məktəbin zavuçu qarovulçunu hissələrə ayırdı və sairə. Yalan olmasın, elə bil "Dekster" serialını, ya da Corc Romeronun filmlərini izləyirsən.

Bu günlərdə Qaradağ Rayon İcra Hakimiyyətinin Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu Niyazi Əliyevi vəzifəsindən azad elədilər. Xəbəri dəqiqliklə təkrarlamağımın mənası budur: bu "icra hakimiyyəti psixoloqu", ümumiyyətlə, nəyə lazımdır ki? Hansı uşaq problemlə üzləşəndə icra hakimiyyətinə gedir və ya aparılır? Bu nə anekdot vəzifədir?

Ancaq guya məktəblərdəki psixoloq ştatları daha qabağa gedibmi? Təsadüfən elə bu mövzuda düşünərkən bir əziz oxucudan məktub aldım: "Bizim kənddə bir korrupsioner var, gəlini məktəbdə ingilis dilindən dərs deyirdi. Sonra gəlin müəllimlərin attestasiyasından keçə bilmədi, işdən çıxardılar. Qayınata dava-şava saldı, gəlini bu dəfə məktəbə... psixoloq ştatına düzəltdirdi. Təbii ki, gəlinin psixologiya üzrə heç bir təhsili yoxdur. Bizim bir qohum uşağından soruşub ki, psixoloqunuz nə işlə məşğuldur, uşaq deyib: "Sözə baxmayan uşaqları polisə verir".

İndi söz əlaqədar təşkilatlarındır. Yazın görüm siz boş vaxtlarınızı necə keçirirsiniz.



# Brüsseldən İrəvana şərt: "Rusiyaya qarşı cəbhəyə keç..."

## Avropa İttifaqı Ermənistana ayırdığı dotasiya qarşılığında sanksiyalara qoşulmağa çağırdı; Qafqaz daha bir qarşıdurma plasdarmına çevrilir

**Ermənistanla Avropa İttifaqı arasında tərəfdaşlıq yeni mərhələyə, strateji tərəfdaşlıq səviyyəsinə qədəm qoyur. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaja Kallas və Aİ-nin genişlənmə üzrə komissarı Marta Kos ilə birgə mətbuat konfransında deyib.**

"Biz əməkdaşlığımızı strateji səviyyəyə qaldırmışıq və bu, ambisiyalarımızın həddi deyil. Martda Ermənistan parlamenti Aİ-yə üzvlük haqqında qanunu qəbul edib. Bugünkü görüşün mesajı çox vacibdir: Ermənistan-Aİ əməkdaşlığı yeni mərhələyə qədəm qoyur", - Mirzoyan bildirib.

Xarici işlər naziri Ermənistan-Aİ əməkdaşlığının Ermənistanın dayanıqlığını daha da gücləndirəcəyinə əminliyini ifadə edib. "İlk Ermənistan-Aİ sammiti 2026-cı ilin mayında baş tutacaq. Bu, həm də mühüm hadisə olacaq və mən sizinlə Yerevanda görüşməyi səbirsizliklə gözləyirəm", - XİN rəhbəri qeyd edib. Tərəfdaşlıq Şurasının iclasından sonra Ermənistan və Avropa İttifaqı arasında Strateji Tərəfdaşlıq Gündəliyi imzalanıb. Sənədi Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarı Kaja Kallas imzalayıblar.

Ermənistana sülh və möhkəmliyin yaradılması üçün 15 milyon avro ayrılacaq. "Əlbəttə, Ermənistanın başqa çağırışları var. Rusiya və onun müvəkkilləri Ermənistanda seçkilər ərəfəsində informasiya kampaniyaları aparır. Biz Moldovada xarici maliyyə yardımı üçün eyni şəbəkələrdən istifadə edildiyini görürük. Xarici müdaxiləyə müqavimət göstərmək bütün cəmiyyətin iştirakını tələb edir. Fəal vətəndaş cəmiyyəti və müstəqil media çox vacibdir. Siz bu çətinliklərlə üzləşməkdə tək deyilsiniz; biz sizə fəal dəstək verməyə hazırıq", - Kallas əlavə edib.

Kaya Kallas Ermənistanı Avropa Birliyinin Rusiyaya qarşı sanksiyalarına qoşulmağa çağırıb. "Dünya nizamı dəyişir və strateji mövqelərin AB-nin ortaq xarici siyasəti ilə uyğunlaşdırılması tərəfdaşlarımız, o cümlədən Ermənistan üçün çox vacibdir. Ermənistanın xarici siyasətinin AB qərarları ilə uyğunlaşma səviyyəsi hazırda 37%-dir. Rusiyaya qarşı tətbiq etdiyimiz sanksiyalar AB üçün sərtdir, lakin buna baxmayaraq, tərəfdaşlarımızdan da bunu istəyirik", - deyə o bildirib.

Ermənistan Dövlət Statistika Komitəsinin və beynəlxalq qurumların açıqladığı məlumatlara görə, son 5 ildə Ermənistanın xarici ticarət dövriyyəsi 4,2 dəfə artaraq 7,1 milyard ABŞ dollarından 30,2 milyard ABŞ dollarına qədər böyüyüb. Əgər 2021-ci ildə Ermənistan Rusiyadan cəmisi 1,8 milyard ABŞ dolları həcmində məhsul idxal etmişdirsə, 2024-cü ildə bu rəqəm 5,1 dəfə və ya 7,4 milyard ABŞ dolları artaraq 9,2 milyard ABŞ dolları təşkil edib, bunun da 6,9 milyard dolları və ya 75%-i sırf qiymətli və ya yarı qiymətli daşlar, qiymətli metallar kimi məhsulların payına düşür.

Əgər qiymətli və ya yarı qiymətli daşlar, qiymətli metallar kimi məhsulların Ermənistandan ixracının həcmi 2020-ci ildə cəmi 368,8 milyon ABŞ dolları təşkil edirdisə, 2024-cü ildə bu rəqəm 8,4 milyard ABŞ dollarından çox olub, 5 il ərzində 23 dəfə artıb. Beləliklə, Ermənistan Rusiyadan sanksiyalara məruz qalmış malları idxal edir və onları, mənşəyini gizlədərək, üçüncü ölkələrə öz məhsulu kimi ixrac etməklə, Moskvanın sanksiyalardan yayınmasına aşkar vasitəçilik edir.

**Siyasi elmlər üzrə fəlsəfə doktoru Züriyə Qarayeva** "Yeni Müsavat"a bildirib ki, Kallasın çağırışının özü də xarici müdaxilədir və Rusiyanın addımlarından fərqlənmir. Onun sözlərinə görə, bununla da faktiki olaraq Ermənistan Qərblə Rusiyanın növbəti qarşıdurma poliqonuna çevrilib.

Politoloq Kallasın çıxışında ən absurd məqamı Ermənistanın sanksiyalara qoşulacağı gözləntisi sayır: "Ermənistan istisna ölkələrdəndir ki, Rusiyaya sanksiyalardan yayınmaqda kömək edir və Avropa ölkələrindən öz tələbatı kimi sifariş verdiyi texnologiya məhsullarını Rusiyaya göndərir. Bu səbəbdən Ukraynada irimiqyaslı hərbi əməliyyatlar başlayandan bəri Rusiya ilə Ermənistanın ticarət dövriyyəsi artıb. Bu baxımdan Avropa İttifaqının Ermənistanı sanksiyalara qoşulmağa çağırması gülməli və riyakar yanaşmadır. Çünki Brüssel çox gözəl bilir ki, Qərb məhsulları Rusiyaya necə gedir və Ermənistan hansı rolu oynayır. Amma görüntü yaradılır ki, guya Ermənistan Rusiyadan ciddi təzyiqlərə məruz qalmaqdadır. Hərçənd Ermənistan işğalçıya sanksiyalardan yayınmaqda dəstək verir, Ukraynaya 1 dollar belə humanitar yardımı olmayıb, di gəl ki, Avropa İttifaqı onu sığallayır. Amma Azərbaycana böhtan yağdırılır ki, guya Kiyevə silah göndəririk".

Ekspert xatırladıb ki, bu günlərdə Hikmət Hacıyev Brüsseldə verdiyi müsahibədə sözügedən məsələyə yenidən toxunub: "Qeyd etdi ki, Azərbaycan Ukraynaya humanitar yardım edir, Rusiyaya isə sanksiyaları dəlib keçməkdə dəstəyimiz yoxdur, bunun nəticəsi də ticarət dövriyyəmizdə artım olmamasıdır. Ermənistanın isə Rusiya ilə ticarət dövriyyəsi göz qabağındadır. Bunu deməkdə məqsədim odur ki, Kallas və bütövlükdə Avropa İttifaqı Ermənistana münasibətdə ikrah hissi doğuran mövqe tutur".

Politoloqun sözlərinə görə, Ermənistan anti-Rusiya blokuna qoşulmayacaq: "Çünki Avrasiya İqtisadi Birliyinin üzvüdür, Rusiyadan neft-qaz alır, dəmiryolları belə bu dövlətin mülkiyyətidir, iqtisadiyyatı ciddi şəkildə ondan asılıdır. Ona görə də Qərbdən Ermənistana ayrılan bu vəsait yalnız Rusiyanın siyasi təsirlərinin azalması, vətəndaş cəmiyyətinin anti-rus ovqatına köklənməsi, seçkilərdə resurs kimi istifadə edilə bilər. Belə desək, bu maliyyə seçkilərdə ruspərəst müxalifətə qarşı mübarizəyə yönəlib. Paşinyana Avropa İttifaqı və Fransa açıq surətdə dəstək verir ki, gələn ilin parlament seçkilərində qalib gəlsinlər. Qərb Rusiya ilə Ermənistan uğrunda savaşacaq. Bu qarşıdurma Gürcüstana da keçəcək. Məncə, Cənubi Qafqazın yenidən silkələnməsi qaçılmazdır. Yəni Qərb Rusiyaya qarşı yeni cəbhəni bizim regionda açmağa hazırlaşır".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

# Trampın generallarının Bakı səfərinin kodları

## ABŞ Azərbaycanı strateji tərəfdaşı olaraq qəbul etdiyi üçün ordumuzun güclənməsində də maraqlıdır; bu görüşlə paralel Bakıda praktiki təlimlərin keçirilməsinin əsl hədəfi...

**ABŞ-nin Avropa Komandanlığının (EUCOM) briqada generalı Azərbaycana gəlib. EUCOM-un tərəfdaşlıq, təhlükəsizlik, əməkdaşlıq və silahların yayılması üzrə direktor müavini, briqada generalı Kris MakKinninin rəhbərlik etdiyi nümayəndə heyətinin səfərinin məqsədi haqda müfəssəl bilgi yoxdur. Sirr deyil ki, Trampın Ağ Evə qayıdışı ilə Azərbaycanla ABŞ arasında əlaqələr yüksələn xətlə inkişaf etməyə başlayıb. Ötən ay ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuper də Bakıda olub.**

ABŞ Azərbaycanı regionda güclü dövlət kimi görür, qəbul edir. Vaşinqton Azərbaycanı özünün strateji tərəfdaşı olaraq qəbul edir. Strateji tərəfdaşının ordusunun daha da güclənməsində isə, təbii ki, Amerika maraqlı olmalıdır. Hərbi, hərbi-texniki istiqamətlərdə əməkdaşlıq, yəqin ki, bundan sonrakı mərhələdə daha da gücləndiriləcək. Azərbaycan Amerika üçün çox vacib regionda yerləşir. Vaşinqtonun Azərbaycanla hərbi sahədə əməkdaşlığa önəm verməsində bu amil də öz sözünü deyir. Dünyada həm Rusiya, həm də İranla quru sərhədi olan yeganə ölkə Azərbaycandır. Eləcə də Azərbaycanın Rusiya və İranla dəniz sərhədləri də var.



ABŞ son beş ildə müharibədə və antiterror əməliyyatlarında yüksək performans, yüksək nəticələr nümayiş etdirmiş Azərbaycan Ordusunun daha da güclənməsinə dəstək verəcək. Bəllidir ki, Ordunun güclənməsi, döyüş qabiliyyətinin yüksək olması, regionda liderliyi, ümumiyyətlə, dünya orduları sırasında gücünə görə ön sıralarda yer alması istiqamətində addımlar davamlı şəkildə atılır. Ordumuz yeni sistemə keçib, Türkiyə modeli qurulur. ABŞ generallarının səfəri digər dövlətlərə bir mesaj xarakterli idi. Bu səfərlə bəyan edilmiş olur ki, ABŞ Azərbaycanla hərbi sahədə əməkdaşlığı genişləndirməkdə qərarlıdır.

Yeri gəlmişkən, Türkiyənin İzmir şəhərində "Doğu Akdeniz - 2025" (Şərqi Aralıq dənizi - 2025) dəvət təlimi keçirilib. Təlimdə qardaş ölkənin hərbi qulluqçuları ilə yanaşı, Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup heyəti, ABŞ-nin terrorizmə qarşı təhlükəsizlik qrupu və Pakistan Ordusunun dəniz patrul təyyarəsi iştirak ediblər. Təlimdə qarşıya qoyulan tapşırıqların icrası zamanı iştirakçı ölkələrin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər. Qeyd edək ki, dəvət təliminə on doqquz ölkədən hərbi qulluqçular müşahidəçi qismində qatılıblar.

Göründüyü kimi, Azərbaycan NATO-nun iki nəhəng gücü - ABŞ və Türkiyə, həmçinin nüvə silahına malik Pakistanla birgə hərbi təlimlərdə iştirak edir. Bu da həm müttəfiq, həm tərəfdaş dövlətlərin ölkəmizin hərbi qüdrətinin və peşəkarlığının artmasında istəkli olduğunu bir daha göstərməkdədir. Həmçinin NATO təlimçilərinin Bakıda məşğələ keçdiklərini də qeyd etmək lazımdır. Bütün bu sadalanan faktlar onu deməyə əsas verir ki, Azərbaycanın Ordusunun postmünaqişə dövründə NATO standartları səviyyəsində müasirləşdirilməsi prosesi dərinləşməkdədir...

**Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Elşad Musayevin** "Yeni Müsavat"a bildirdiyinə görə, Tramp Administrasiyası dövründə iki ölkə arasında əlaqələr ən müxtəlif sahələrdə inkişaf etməkdədir. Parlamentarinin fikrincə, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörənliyi nəticəsində bu gün Vaşinqtonla münasibətlər yeni mərhələyə daxil olub.

"Dövlət başçısı Birləşmiş Ştatlarda hələ seçkidən əvvəl respublikaçı namizəd Donald Trampı dəstəkləmişdi. Cənab Prezident yaxşı bilirdi ki, demokratların namizədi Kamala Harris də Cozef Bayden kimi ermənipərəst siyasətçidir, onun qələbəsi Azərbaycanla münasibətlərdə olan gərginliyi davam etdirəcək. Ona görə də demokratların namizədinə dəstək verilməsi mümkün deyildi. Eyni zamanda Donald Trampın birinci prezidentliyi dövründə də Azərbaycan-ABŞ əlaqələri inkişaf etmişdi. Bayden isə rəhbərlik etdiyi dövrdə açıq şəkildə anti-Azərbaycan mövqe tutdu. Halbuki Azərbaycan ABŞ kimi fövqəlgüc bir dövlətlə gərgin münasibətlər istəməzdi. Trampın qələbəsindən sonra qısa müddətdə Bakı-Vaşinqton xəttində yeni səhifə açıldı", - deputat belə qiymətləndirir.

Onun sözlərinə görə, çox keçmədən 8 avqust tarixi zirvənin baş tutması, Trampın Azərbaycan Prezidentini yüksək qiymətləndirməsi, həmçinin Misirdə keçirilən sammitdə yenə də xoş fikirlər bildirməsi onun verdiyi dəyərdən irəli gəlirdi: "Tramp Azərbaycanın Cənubi Qafqazda mühüm əhəmiyyətini qiymətləndirən siyasi liderdir. Ölkəmizin hansı coğrafiyada yerləşdiyini də nəzərə alır. Ona görə də Azərbaycana strateji tərəfdaş kimi yanaşır. Cənab Prezident də hesab edir ki, bu münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlməlidir. Artıq ABŞ-Azərbaycan Strateji İşçi Qrupu fəaliyyətdədir. Bu da münasibətlərin inkişaf perspektivindən xəbər verməkdədir".

E.Musayev Trampın "907-ci düzəliş"i dayandırmasını və digər addımlarını Azərbaycan-ABŞ münasibətlərində yeni dövr adlandırır: "Odur ki, amerikalı generalların səfərləri, müxtəlif səviyyələrdə təmaslar bu əməkdaşlığın genişləndirilməsinin bir tərkib hissəsidir. ABŞ rəhbərliyi Azərbaycanın İsrail-Türkiyə, İsrail-Suriya danışıqlarında rolunu da gözəl bilir, Avropanın enerji təminatındakı yerini də yaxşı başa düşür, İran və Rusiya kimi qonşuların əhatəsində necə bir siyasi manevrlər etdiyini də görməkdədir. Təbii ki, buna yüksək qiymət verilməlidir. Eyni zamanda Azərbaycan ABŞ üçün bu regionda ən vacib tərəfdaşdır. Biz beynəlxalq terrorizmlə mübarizədə, habelə Əfqanıstan, Kosova kimi qeyri-stabil bölgələrdə zamanında sülhməramlı kontingentdə iştirak etmişik. Yəni hazırkı administrasiya Azərbaycanın bölgədəki rolunu dəyərləndirib tərəfdaşlığın səviyyəsini daha da yüksəltməkdə maraqlı olmalıdır. Amerikalı generalların da gəlişində xüsusən təhlükəsizlik məsələləri, hərbi əməkdaşlıq, regiondakı vəziyyət xüsusi müzakirə olunur. Məncə, "Tramp marşrutu" adlanan Zəngəzur dəhlizinin tezliklə açılmasında da ABŞ rəhbərliyinin dəstəyini görə bilərik. Hər halda Vaşinqton İrəvanı tələsdirməlidir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Tramp Moskva görüşündən razıdır

**"Stiv Uitkoff və Cared Kuşner Prezident Putinlə kifayət qədər yaxşı görüş keçiriblər". Bunu ABŞ Prezidenti Donald Tramp jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi heç zaman başlamamalı idi. "Amma Prezident Putin Cared Kuşner və Stiv Uitkoffla çox yaxşı görüş keçirib. Bu görüşdən nə nəticə çıxardığını sizə deyə bilmərəm, çünki tanqo üçün iki nəfər lazımdır", - deyə Tramp vurğulayıb.**

Tramp deyib ki, Vaşinqton Ukraynaya yardıma artıq öz büdcəsindən pul ayırmır. Onun sözlərinə görə, NATO ABŞ-dən silah alır və daha sonra həmin silahları Kiyevə çatdırır. "Biz, ümumiyyətlə, bu müharibəyə pul xərcləmirik, hər şeyi NATO-ya satırıq. Artıq bizi əvvəlki prezident Bayden dövründə olduğu kimi talamırlar. Bayden hamıya bizim raketləri, nə istəsələr pulsuz verirdi, nə etdiyini anlamırdı. İndi isə hər şeyin tam qiyməti ödənilir. Əvvəlcə silahlar NATO-ya gedir, sonra NATO onların paylanması ilə məşğul olur. NATO bizə pul ödəyir", - deyə Tramp Ağ Evdə jurnalistlərə bildirib.

Bu arada məlum olub ki, ABŞ Prezidentinin xüsusi elçiləri Mayamidə Rusiya-Ukrayna sülh danışıqlarının davam etdirilməsi üçün Ukraynanın aparıcı danışıqçısı Rustem Umerovla görüşəcəklər.

## Senat Venesuelada güc tətbiqinə qarşı

**Bir qrup amerikalı senator Tramp Administrasiyasına Venesuelaya qarşı Konqresin icazəsi olmadan hərbi güc tətbiq etməməyi tələb edən qətnamə təqdim edib.**

APA xəbər verir ki, bu barədə Virciniyadan demokrat senator Tim Keyn məlumat yayıb. Sənəd Tim Keyn, Kentukkidən respublikaçı Rand Pol, Kaliforniyadan demokrat Adam Şiff və Senatdakı demokrat azlığın lideri Çak Şumer tərəfindən hazırlanıb.

Qətnamənin məqsədi ABŞ Silahlı Qüvvələrinin Konqresin razılığı olmadan "Venesuela ərazisində və ya ona qarşı hərbi əməliyyatlarda iştirakını qarşısını almaqdır".

Venesuela Silahlı Qüvvələri ABŞ Administrasiyasından gələn təhdidlər fonunda ölkənin bütün ərazisində döyüş hazırlığı vəziyyətində yerləşdirilib. Bu barədə isə Prezident Nikolas Maduro bildirib. Dövlət başçısı xatırladıb ki, ABŞ-dən gələn hədələr səbəbindən artıq beş aydır ölkədə polis bölmələrinin iştirakı ilə "Müstəqillik 200" adlı genişmiqyaslı təlimlər keçirilir.

Maduro Vaşinqtonun Venesuelaya qarşı atdığı addımları qınayıb və ölkənin suverenliyinə yönəlmiş təzyiqləri qəbuledilməz adlandırıb.

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

# Dövlətçiliyimiz növbəti sınaqdan çıxdı

## Aydın Mirzəzadə: "Onlardan bəzilərinin istintaq dövründə ölkədən qaçmaq istəmələri onu göstərir ki..."

**"Ramiz Mehdiyev-Əli Kərimli birliyinin ifşa edilməsi göstərdi ki, Azərbaycan dövlətçiliyini necə də böyük bir təhlükə gözləyirmiş. Bu insanlar öz siyasi ambisiyaları üçün xarici dövlətlərin Azərbaycanın daxili işlərinə qarışmalarına çalışıblar. Bunlar qeyri-qanuni yollarla hakimiyyəti əldə etmək, dövlət quruluşunu dəyişmək üçün müxtəlif variantlar üzərində işləyiblər".**

**Hakim Yeni Azərbaycan Partiyasının parlament təmsilçilərindən olan Aydın Mirzəzadə** "Yeni Müsavat"a belə deyib. Onun sözlərinə görə, dövlətçiliyimiz növbəti dəfə sınaqdan çıxıb: "Biri uzun müddət iqtidarda olub, amma çox məharətlə özünün iç dünyasını gizlədə bilib. O biri isə, elə əvvəlcədən vətənpərvərlikdən uzaq insan kimi tanınırdı. Onları birləşdirən hakimiyyət hərisliyi oldu. Görünən ondan ibarətdir ki, bunlar iqtidarda, hakim Yeni Azərbaycan Partiyasında özlərinə tərəfdar tapa bilmədilər. Bunlar çirkin fəaliyyətlərinin ifşa olunacağına inanmırdılar. Birinin idarəçilik təcrübəsi, o birisinin isə xarici anti-Azərbaycan mərkəzlərlə əlaqəsi bunları çox arxayın salmışdı. Onlardan bəzilərinin istintaq dövründə ölkədən qaçmaq istəmələri onu göstərir ki, doğrudan da bunların qorxacağı məqamlar var. Gültəkin Hacıbəylinin iki ay öncə Türkiyəyə qaçması, Cəmil Həsənlinin isə bir bəhanə ilə xaricə uçmaq istəyərkən saxlanılması çox mətləblərin üstünü açır. Hacıbəylinin məktub yazaraq Türkiyə hökumətinin onu təhvil verməməsi üçün təkidlə xahiş etməsi göstərir ki, onun da iştirakçısı olduğu, heç də xoş məram ifadə etməyən kifayət qədər işləri var. Bu gün Azərbaycan ictimaiyyəti bu məsələləri yaxından diqqətlə izləyir. Dövlətçilik və müstəqilliyimizin qorunması üçün hakimiyyətin gördüyü işlər dəstəklənir. Görünən odur ki, növbəti dəfə dövlətçiliyimizi sınaqdan keçirmək cəhdi başa çatdı. Dövlətçiliyimiz ayaqdadır. Müstəqilliyimizin kökü xalqımızın inamındadır".

"Dövlət təhlükəsizliyi orqanlarının araşdırmaları çərçivəsində üzə çıxan faktlar bir sıra ciddi narahatlıqlara səbəb olur. Ramiz Mehdiyevlə əlaqəli qrupların yenidən fəallaşa biləcəyi, bu prosesdə bəzi müxalif qüvvələrin rolunun olması xüsusi diqqətlə izlənir". **Milli Məclisin deputatı Naqif Həmzəyev** demokrat.az-a müsahibəsində deyib.

Deputat bildirib ki, AXCP uzun illərdir siyasi xəttini aqressiv və radikal ritorika üzərində qurub: "Əli Kərimli və partiya təmsilçilərinin bəzi çıxışları və davranışları çox vaxt dövlət maraqları ilə uzlaşmır. Onların beynəlxalq arenada Azərbaycanın mövqeyinə qarşı açıqlamaları, regional əməkdaşlıq təşəbbüslərinə qeyri-konstruktiv yanaşmaları və daxili sabitliyi hədəf alan davranışları buna misal sayıla bilər. Müasir təhlükəsizlik yanaşmaları risklərin vaxtında aşkarlanmasının vacibliyini önə çəkir. Dövlət qurumlarının mümkün təhdidləri erkən mərhələdə müəyyənləşdirməsi və adekvat addımlar atması ölkənin suverenliyinin qorunması baxımından mühümdür. Hazırkı geosiyasi şəraitdə xarici güclərin daxili qüvvələrdən istifadə etmə ehtimalı daim mövcud olduğundan, sabitliyin təmin edilməsi və qanunun aliliyinin qorunması strateji prioritet olaraq qalır".

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) noyabrın 29-da AXCP sədri Ə.Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahimi saxlayıb. Səbayel Rayon Məhkəməsi dekabrın 1-də onların hər biri barəsində 2 ay 15 gün müddətə həbs-qətimkan tədbiri seçib.

Əli Kərimli və Məmməd İbrahim Cinayət Məcəlləsinin 278.1 (hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirməyə yönələn hərəkətlər) maddəsi ilə ittiham edilirlər. Hər iki şəxs Ramiz Mehdiyev barəsində başladılan cinayət işi çərçivəsində həbs olunub.





"Ramiz Mehdiyev işi" üzrə istintaqa cəlb edilən isimlərdən biri də Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylidir. Onun ətrafında son günlərdə bəzi müəmmalar yaranmışdı. Əvvəlcə onun Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya edildiyi yöndə məlumatlar media orqanlarında getdi. Amma sonradan saxlanılma xəbəri təsdiq olunsa da, onun hələ də Türkiyədə olduğu bildirildi.

Bildirilir ki, Gültəkin Hacıbəyli hazırda Türkiyənin İstanbul şəhərində, Arnavutköy Geri Göndərmə Mərkəzində saxlanılır. O, bu barədə öz sosial media hesabında geniş açıqlama yayıb.

Gültəkin Hacıbəylinin sözlərinə görə, noyabrın 29-da gecə saatlarında kirayədə qaldığı mənzilə 4 polis əməkdaşı gəlib və onu heç bir hüquqi əsas göstərmədən məcburi şəkildə geri göndərmə mərkəzinə aparıblar. O bildirir ki, 25 sentyabrda Türkiyəyə, təhsil alan oğlunun yanına gəlib, üç aylıq vizası hələ bitməyib və üstəlik, iki illik oturum izni də mövcuddur. Öz ifadəsinə görə, Türkiyədə qaldığı müddətdə heç bir qayda pozuntusuna yol verməyib. G. Hacıbəyli yazır ki, hazırda onu "xarici terrorçulara tətbiq olunan G-82 maddəsi ilə" nəzarətdə saxlayırlar. Bu maddə adətən "ictimai təhlükəsizliyə təhdid yaradan şəxslərə" qarşı istifadə olunur və Türkiyədən deportasiyanı nəzərdə tutur. Onun iddiasına görə, hazırda Azərbaycana təhvil verilməsi üçün hazırlıq gedir.

Gültəkin Hacıbəylinin bildirdiyinə görə, məsələ artıq Avropa Məhkəməsinə çıxarılıb və vəkili vasitəsilə Türkiyədə də məhkəmə prosesləri başlayacaq. O, Türkiyə hakimiyyətinə müraciət edərək belə yazıb: "Azərbaycan hakimiyyətinin təzyiqləri ilə hüquqa zidd qərar qəbul etməyin. Mən 10 il Azərbaycanı Avropa Şurasında təmsil edən deputat olmuşam, siyasi fəaliyyətimdə heç bir qanun pozuntusu yoxdur. Məni 'xarici terrorçu' kimi deportasiya etmək yolverilməzdir".

Gültəkin Hacıbəylinin açıqlamaları ilə yanaşı, diqqətçəkən çox ciddi detal var: Əgər onun narahatlığı və hansısa çəkinəcəyi olmasaydı, Ramiz Mehdiyev ev dustaqlığına məhkum edildiyi günün ertəsi - yəni Mehdiyev işi açıq şəkildə genişlənməyə başladığı anda - Gültəkin Hacıbəyli Bakıdan çıxıb getməzdi. O, heç bir səbəb olmadan iki ay Türkiyədə qalmaz, bu qədər intizamsız hərəkət etməzdi.

Bu isə təbii şəkildə belə bir sualı gündəmə gətirir: Görəsən, onun Azərbaycana dönməkdən imtina etməsinin arxasında hansısa hüquqi məsuliyyət doğuran səbəblər varmı?

Məlum olduğu kimi, Ramiz Mehdiyev işi ilə bağlı istintaqda həm siyasi müxalifətlə, həm də keçmiş yüksək çinli şəxslərlə bağlı müəyyən əlaqələrin araşdırıldığı bildirilir. Milli Şura daxilində bu məsələ ətrafında gərginliklər də diqqət çəkir. Bu fonu nəzərə alanda, Gültəkin Hacıbəyli özünü "tam günahsız" kimi təqdim etsə də, Azərbaycana qayıtmaqdan kəskin şəkildə yayınması əlavə suallar doğurur.

Hazırda Gültəkin Hacıbəylinin Türkiyədə saxlanılması, onun Azərbaycana təhvil verilməsi ehtimalı və bu prosesin mümkün siyasi-hüquqi nəticələri Azərbaycan mediasında ciddi müzakirə mövzusu olaraq qalır.

Onun açıqlamaları isə, məsələnin təkcə "hakimiyyətin təzyiqi" ilə deyil, özünün də hansısa məsuliyyətdən yayınmaq ehtimalı ilə bağlı olduğunu göstərən sualları daha da gücləndirir.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

### Bəzi QHT-lər Mehdiyevin sifarişlərini icra edib

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının ( AXCP) sədri Əli Kərimli və partiyanın Rəyasət Heyətinin üzvü Məmməd İbrahim barələrində aparılan araşdırma çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) dindiriliblər.**

Onlar barəsində Səbayel Rayon Məhkəməsində 2 ay 15 gün müddətinə həbs-qətimkan tədbiri seçilib.

AXCP sədrinin dövlətə xəyanətdə ittiham olunan Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevlə əlbir olduğu bildirilir.

Lakin bundan sonra da "Ramiz Mehdiyev işi" ilə əlaqəli olan başqa özünü müxalifət adlandıranların da olduğu və daha başqalarının da saxlanılacağını iddia edənlər var.

Modern.az-a açıqlamasında **Azad Vətən Partiyasının sədri Akif Nağı** bildirib ki, Ramiz Mehdiyevin yaratdığı şəbəkədə müxalifət rəhbərləri və ya başqa istiqamətdə olanlar da, yəqin ki, var və onlar da istintaqa cəlb olunacaqlar:

"Ramiz Mehdiyev Azərbaycan dövlətinin içərisində olub. O, proseslərə rəhbərlik edib və müxtəlif işlərə maecilik törədib. Bir sözlə, öz şəbəkəsini qurub. Onun sifarişlərini həyata keçirən bu şəbəkənin içərində icra başçıları, məmurlar, nazirlik əməkdaşları, deputatlar olublar. Heç şübhəsiz, onun müxalifətdə də,QHT-lərdə də sifarişlərini həyata keçirənlər olub. Bir sözlə, o, həddindən artıq genişşaxəli bir şəbəkə yaratmışdı".

A.Nağı söyləyib ki, istintaq prosesinə hörmətlə yanaşmaq lazımdır:

"Böyük ehtimalla müxalifətin içərisində də partiya rəhbərləri olsun, başqa istiqamətdə fəaliyyət göstərənlər mövcuddur. Onlar da istintaqın gedişində məsuliyyətə cəlb olunacaqlar. Azərbaycan hüquq-mühafizə orqanları istintaq aparır. Və istintaq prosesində aparılan işlərə hörmətlə yanaşmaq lazımdır. Biz bu mərhələdə hüquq-mühafizə xidmətlərinə inanmalıyıq. Başqa sözlər, şayiələr, məncə, düzgün deyil".

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

# Hökumət “parnik”ləri öz nəzarətinə alır

## İstixanaların tikintisi üçün icazə tələb olunur-sabiq nazir deyir ki, indi 100 hektardan yuxarı ərazilərin 1 faizi daxilində istənilən obyekti inşa etmək olar

**Azərbaycanda kənd təsərrüfatı obyektlərinin tikintisi üçün gələcəkdə icazə tələb olunacaq. Məlumata görə, Torpaq Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanunun tətbiqi çərçivəsində Şəhərsalma və Tikinti Məcəlləsinə müvafiq dəyişikliklər hazırlanıb. Qanun layihəsi Milli Məclisin (MM) Aqrar siyasət komitəsinin iclasında müzakirəyə çıxarılıb.**

Təklif olunan dəyişikliklərə əsasən, kənd təsərrüfatı obyektləri icazə tələb olunmayan strukturların siyahısından çıxarılıb. Ona görə də kənd təsərrüfatı təyinatlı torpaqlarda belə obyektlərin, o cümlədən quyuların, istixanaların, 100 nəfərə qədər yerləşə bilən müvəqqəti tikililərin tikintisi üçün icazə tələb olunur.

Müzakirələrdən sonra qanun layihəsi parlamentin plenar iclasına çıxarılması üçün tövsiyə olunub. Hökumətin “parnik”ləri öz nəzarətinə almasının səbəbləri nədir, bunun hansı mənfi və ya müsbət tərəfləri olacaq?

Yada salaq ki, bu il sentyabr ayında Baş nazir Əli Əsədov kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin inşası üçün yol verilən həddin hesablanması qaydalarını təsdiq etmişdi. Qaydalarla kənd təsərrüfatı təyinatlı torpaqlarda inşaata icazə verilən hallar və hədlər müəyyənləşdirilib. Bu barədə **iqtisadçı-deputat Vüqar Bayramov** qeyd edib ki, sənədə əsasən, sahəsi 5 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən, yay və qış otlaqları, ümumi istifadədə örüş sahələri istisna olmaqla kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin bir faizindən artıq olmayan hissəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər inşa edilə və quraşdırıla bilər: “Bu o deməkdir ki, 10 hektar kənd təsərrüfatı təyinatlı torpağı olan sahibkar onun 10 sotunda inşaat işləri apara bilər. Bu kənd təsərrüfatı təyinatlı torpaqların iqtisadi baxımdan daha səmərəli istifadə edilməsi baxımından vacib idi. Çünki əvvəllər belə qaydaların olmaması sahibkarlar üçün xüsusi çətinliklər yaradırdı. Nazirlər Kabinetinin son qərarı bu çətinlikləri, praktik olaraq, aradan qaldırır.

Bu qaydalara görə, torpaq sahəsinin əsaslı tikili olmayan bir hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə bölünən torpaq sahələri 5 hektardan az olduğu halda tikililərin inşasına və quraşdırılmasına yol verilmir. Bu qayda torpaqlardan birgə istifadəni stimullaşdıra bilər. Çünki qaydalara əsasən, üzərində əsaslı tikili olan və ərazisi 5 hektardan az olan torpaq sahəsi qonşu torpaq sahəsi ilə birləşdirildikdən sonra yaranan vahid torpaq sahəsində tikinti əmsalı həmin əsaslı tikilinin sahəsi çıxılmaqla müəyyən edilir. Hazırda aqrar sektorda ən ciddi çağırışlardan biri də ümumi torpaq sahəsi böyük olan təsərrüfatların sayının az olmasıdır".

“Nazirlər Kabinetinin qərarına əsasən, tikinti əmsalından tam istifadə edildikdə torpaq sahəsinin əsaslı tikili olmayan hissəsi başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçdikdə, torpaq sahəsinin həmin hissəsi yenidən tikinti əmsalına cəlb edilmir. Bütövlükdə yeni qərar kənd təsərrüfatı təyinatlı torpaqların istifadəsində səmərəliliyin artmasına səbəb olacaq”, - deyə deputat qeyd edib.



**Aqrar sahə üzrə ekspert, Naxçıvan Muxtar Respublikasının sabiq kənd təsərrüfatı naziri Rəcəb Orucov** “Yeni Müsavat”a mövzunu belə şərh edib: “Kənd təsərrüfatı təyinatlı torpaqlarda bu sahəni təşviq edən tikililərin inşası ilə bağlı məsələlər artıq öz həllini tapıb. Parniklər müvəqqəti tikili hesab olunur, dəmir konstruksiyadır. Əvvəlki Torpaq Məcəlləsində də göstərilirdi ki, bunlar istehsaldan kənar təyinatlı tikinti sayılmır. Əgər hər bir istehsalçının özünəməxsus torpaq sahəsi varsa və sərəncamvermə hüququ ona məxsusdursa, həmin ərazidə bağ salınmasına və digər bu kimi işlərə icazəsi var. Sadəcə, yerli icra hakimiyyəti məlumatlandırılmalıdır”.

Ekspert qeyd edir ki, müasir şəhərsalma prinsiplərindən kənar, mövcud qaydalara uyğun olaraq hansısa tikilinin icazə tələb edib-etməməsi qanunvericiliyin tələblərinə əsaslanır: “Bu məsələ də həmin kontekstdədir. Kənd təsərrüfatı təyinatlı torpaqlarda yaşayış binası və ya emal yönümlü obyektlərin tikintisi ilə bağlı olaraq, 5 hektardan yuxarı sahələrdə ümumi ərazinin 1-3 faizində tikinti aparılmasına icazə verilib. Bu məsələ bu il Milli Məclisin Aqrar siyasət komitəsində müzakirə olunub və təsdiqini tapıb. Burada söhbət yalnız kiçik pay torpaqlarından getmir. Aqropark layihələri var ki, 5 -10 hektar, bəzilərində isə 50-100 hektar əraziləri əhatə edir. Həmin yerlərdə işçilərin kommunal şəraitinin yaxşılaşdırılması baxımından bu qərar çox uyğundur. Əvvəllər ciddi maneələr yaranırdı. Məsələn, mən fərdi sahibkar kimi 100 hektar sahəyə malik idimsə, orada heyvandarlıq üçün tövlə, mini emal müəssisəsi və ya kiçik quşçuluq təsərrüfatı tikə bilmirdim. İndi isə qanun təsbit edir ki, 100 hektardan yuxarı ərazilərin 1 faizi daxilində istənilən təyinatlı obyekti mövcud şəhərsalma tələblərinə uyğun şəkildə inşa etmək mümkündür.

Bu qanunun mənfi tərəfi yoxdur, yalnız müsbət nəticələr verəcək. Ümumiyyətlə, bu məsələ uzun müddət müzakirədə idi. İstehsalçılar tərəfindən də daim təkliflər verilirdi, çünki hüquqi bazanın olmaması yerli icra hakimiyyəti orqanları ilə çox ciddi problemlər yaradırdı. Bu gün isə həm istehsalın düzgün təşkili, həm də şaxələndirilməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində çox ciddi addım atılıb. Qanunu da müsbət qiymətləndirmək lazımdır, mənfi tərəfi yoxdur".

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Marketlərdə “halal” adı ilə donuz əti konservi

## Məhsulların təhlükəsizliyi necə yoxlanılır?




**Rusiyada fəaliyyət göstərən “Qlavprodukt” şirkətinin Azərbaycana göndərdiyi mal əti konservlərində donuz əti DNT-si aşkar edildiyi ilə bağlı “All Exclusive” “Telegram” kanalına istinadən “İnsayder” nəşri məlumat yayıb.**

Məlumata görə, şirkətin “halal” adı altında bişmiş mal əti konservləri Rusiya Silahlı Qüvvələrinə və Azərbaycan da daxil olmaqla bir neçə müsəlman ölkələrinə göndərilib. Məhsulun genetik analizinin nəticələrindən sonra qanunsuzluqar aşkar olunub.

Bildirilir ki, sözügedən şirkət bu ilin iyulunda keçmiş kənd təsərrüfatı naziri Aleksandr Tkaçeyevə yaxın qurumun nəzarəti altına keçib.

Sentyabr ayında aparılan analizə əsasən, “Family Budget” markalı 500 qramlıq bişmiş ət konservlərində donuz ətinin DNT-si aşkar edilib.

Bu “Qlavprodukt”un Oryol vilayətindəki törəmə şirkəti olan “Oryolprodukt” ASC tərəfindən istehsal edilib. Qeyd edək ki, ölkəyə idxal olunan məhsulların tərkibi, keyfiyyətinə nəzarət AQTA tərəfindən həyata keçirilir.

Bu konservlər ölkəyə daxil olarkən AQTA tərəfindən yoxlama aparılırmı və aparılırsa, necə olub ki, bu proses baş verib?

Məsələ ilə bağlı AQTA-dan cebheinfo.az-ın sorğusuna cavab olaraq bildirilib ki, Rusiyanın “Oryolprodukt” ASC-nin mediada qeyd olunan istehsal tarixli mal əti konservi məhsul partiyası ölkəmizə idxal olunmayıb.

“Aldığımız hər bir məhsulun insan sağlamlığı üçün təhlükəsiz olması vacibdir. Ölkəyə idxal olunan sanitariya nəzarətinə aid qeyri-ərzaq məhsulları laboratoriyalarda müayinələrdən keçirilir”.

Bu barədə isə Səhiyyə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, bu zaman qeyri-ərzaq məhsullarının nümunəsi laboratoriyada müayinəyə cəlb olunur.

Müayinə zamanı məhsulun fiziki-kimyəvi, toksikoloji və mikrobioloji göstəriciləri yoxlanılır, həmçinin orqanoleptik xüsusiyyətləri və yararlılıq müddəti qiymətləndirilir.

Laborator sınaqlar nəticəsində məhsulun sanitariya-gigiyena norma və tələblərinə uyğunluğu müəyyən edilir və qanunvericilikdə göstərilmiş digər göstəricilər nəzərdən keçirilir.

Yalnız təhlükəsizliyi təsdiqlənmiş məhsulların ölkə daxilində satışına icazə verilir. Sanitariya nəzarətinə aid bu məhsulların təhlükəsizliyinə isə Səhiyyə Nazirliyi Respublika Sanitariya-Karantin Mərkəzi nəzarət edir.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

## Ermənistanda hərbi xidmət müddəti azaldılır



Ermənistanın müdafiə naziri Suren Papikyan hərbi xidmət müddətinin azaldılmasından danışıb.

Parlamentdə çıxış edən Papikyan deyib burada bir məqsəd var: Ermənistan ordusunu daha peşəkar etmək. Onun sözlərinə görə, bu qərar orduya qəbulun səmərəliliyinin artırılmasına əsaslanır. Nazir konkret rəqəmlər verməkdən imtina edib və qeyd edib ki, onları əvvəllər də səsləndirib.

"Lakin hesablamalarla bağlı hər hansı bir şübhə yaranarsa, bu məsələyə yenidən ətraflı baxmağa hazıram", - deyə Papikyan əlavə edib.

Xatırladaq ki, Ermənistanda sıravi əsgərlər üçün məcburi hərbi xidmət müddəti 24 aydan 18 aya endiriləcək. Bu qərar 2026-cı il yanvarın 1-dən sonra məcburi xidmətə çağırılan vətəndaşlara şamil ediləcək.

Orduya qış çağırışı prosesi 2026-cı il yanvarın 7-də başlayacaq.



# Əsgərliyə çağırışla bağlı qaydalar niyə dəyişdi?

## Ekspert: "Hərbi çağırış 2 dəfəyə endirilə bilər"

**Dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçiriləcəklər.**

Bu, Nazirlər Kabinetinin "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də etdiyi dəyişiklikdə əksini tapıb. Dəyişiklik baş nazir Əli Əsədov tərəfindən imzalanıb.

İndiyə qədər qüvvədə olan qərara əsasən, hərbi xidmətə çağırış zamanı "sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı" sayılmış və bununla əlaqədar ehtiyata keçirilmiş vətəndaşlar 35 yaşa çatana qədər 3 ildən bir məcburi şəhadətləndirilməyə keçirilirlər.

Həmçinin çağırışaqədər yaş həddində olan vətəndaşların tibbi müayinəsinə dair yeni prosedur müəyyənləşib.

Beləliklə, çağırışaqədər yaş həddində olan vətəndaşlar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində ilkin hərbi qeydiyyata alınarkən onların tibbi şəhadətləndirilməsi məqsədilə tibbi müayinəyə, habelə hərbi xidmət müddətində daha məqsədəuyğun istifadə edilməsini müəyyənləşdirmək üçün psixoloji müayinəyə cəlb olunacaqlar. Müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan vətəndaşlar çağırışa 2 ay qalmış müddətdə mütləq tibbi müayinədən keçiriləcəklər.

Dəyişikliyə əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsinin aparılması üçün tibbi müayinənin nəticələrinə dair sənədləri onların rəsmiləşdirildiyi gün altsistemə daxil edəcək. Agentlik çağırışçının yekun tibbi müayinəsini altsistemə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ötürülmüş tibbi müayinə nəticələri və çağırışçıların əyani tibbi müayinəsi əsasında həyata keçirəcək.

**"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri, hərbi təhlilçi Emin Həsənli** yeni qərarı müsbət qərar kimi dəyərləndirdi. "Yeni Müsavat"a açıqlamasında ekspert vurğuladı ki, adətən 25 yaşa qədər ali təhsili, magistraturanı, o cümlədən hərbi xidməti bitirirlər: "Sağlamlıqla bağlı məhdudiyyəti olan 30-35 yaş arası hərbi xidmətə cəlb olunan şəxslərin sayı çox az idi, ona görə də yaş həddi 30-a qədər endirildi. Məntiqlə sağlamlığında problem olan şəxslərin hərbi çağırış yaşı 35 qala bilməzdi. Belə dəyişikliklər zamana uyğundur. Bu cür qanunlar qəbul edilərkən xeyli təhlillər aparılır, qərarlar çağırışçıların yaşı, sağlamlığı, ölkəni müdafiə etmə qabiliyyəti, ehtiyatda olan hərbçilərin sayı və s. əsasında verilir. Gələcəkdə çağırış ildə 4 dəfədən 2 dəfəyə endirilə, yaz və payız çağırışı ola bilər. Hərbi xidmətə ildə 4 dəfə çağırış edilməsi müharibə dövrü üçün aktual idi. Faiz nisbətində qeyd etsək, müharibə dövründə hərbi xidmətə yararlı şəxslərin sayı orduda 75 faiz, ehtiyata buraxılanların isə 25 faiz olması nəzərdə tutulurdu. Əgər çağırış ildə iki dəfə olsaydı, qəfil müharibə vəziyyətində çətinlik yarana bilərdi. Xüsusilə müharibə zamanı dövlətin müdafiə və təhlükəsizliyi üçün bu qərarın doğru olduğu təsbit olundu".

E.Həsənli gələcəkdə müddətli həqiqi hərbi xidmətə çağırış yaşının yuxarı həddinin 27-yə endirilməsini istisna etmir. Onun sözlərinə görə, xidmət müddəti ilə bağlı da dəyişikliklər gündəmə gələ bilər: "Gələcəkdə xidmət müddəti orta təhsillilər üçün 1 il, ali təhsillilər üçün isə 6 ay müəyyən edilə bilər. Hazırda dövlətlər sürətlə silahlanır. İkinci Dünya müharibəsi, "Soyuq müharibə"dən sonra hər kəs düşünürdü ki, buna ehtiyac olmayacaq. Lakin Rusiya-Ukrayna müharibəsi və s. bunun əksini sübut etdi. Azərbaycan 44 günlük Vətən müharibəsində qələbəni səfərbərlik sistemi, peşəkar, müasir ordu quruculuğu, müasir silahlar sayəsində əldə etdi. Hazırda, dünyanın hərbiləşdiyi zamanda, Azərbaycan islahatları birdən-birə edə bilməz. İstərdim hərbi xidmətə çağırış yaşının yuxarı həddi 27 olsun, çağırış isə ildə 2 dəfə olsun. Bu, iqtisadi cəhətdən də məqsədəuyğun olar, çünki çağırış prosesi ağır keçir. O ki qaldı hərbi xidmətin müddətinin bir il yarım qalmasına, çağırış ibtidai təhsil kimidir, çağırış olmadan şəxsin həyatını orduya bağlaya biləcəyini, hərbi qulluqçu kimi xidmət edəcəyini müəyyənləşdirmək mümkün deyil. Dünya təcrübəsində də çağırış ildə 2 dəfə olur, hərbi xidmətə yararlı şəxslərin 50 faizi orduda, 50 faizi isə ehtiyatda olur. Azərbaycan həssas regionda yerləşir, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verənləri nəzərə alaraq, sülh əldə olunduqdan, şərtlər dəyişdikdən sonra dövlət müvafiq islahatları həyata keçirəcək".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

# 16 manat sığorta haqqını bu şəxslər ödəyəcək

## Deputat vurğulayıb ki, son günlər sosial şəbəkələrdə yanlış yorumlar verilir



**Hazırda formal şəkildə fəaliyyət göstərən qurumlarda işçi 2% və işəgötürən də 2% olmaqla, bir vətəndaş üçün ümumilikdə 4% icbari tibbi sığorta haqqı ödənilir. Sözügedən qanuna dəyişiklik edildikdən sonra müəyyən kateqoriyaya daxil olan şəxslər istisna olmaqla, əmək potensialı olan şəxslər də ayda minimum əməkhaqqının (400 manat) 4%-i həcmində, yəni 16 manat icbari tibbi sığorta haqqı ödəyəcək.**

Milli Məclisin sonuncu plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı **maliyyə naziri Sahil Babayev** bildirib ki, bəlli bir kateqoriya insanların hamısı, yəni uşaqlar, pensiyaçılar, əlilliyi olan insanlar, əmək qabiliyyətsiz şəxslər, işsizlər dövlət tərəfindən tibbi sığorta olunacaq.

Onun sözlərinə görə, bu, bəzi hallarda, tam əks formada başa düşülür ki, işsizlər sığortalanmayacaq.

Nazir qeyd edib ki, əksinə, ilk dəfə olaraq qanunvericilikdə birbaşa göstərilir ki, işsizlər də dövlət tərəfindən sığorta olunacaq.

Məsələ ilə bağlı modern.az-a açıqlamasında **Milli Məclisin Səhiyyə komitəsinin üzvü Müşfiq Məmmədli** də bildirib ki, "Tibbi sığorta haqqında" qanuna əsasən 18 yaşadək uşaqlar, 23 yaşadək birinci ali təhsil alan tələbələr, pensiyaçılar, yaşa görə təqaüd alanlar, sağlamlıq imkanları məhdud olub müxtəlif növ müavinət alan şəxslər dövlət hesabına tibbi sığorta olunan vətəndaşlar kateqoriyasına daxildir.

"Yeni bu şəxslər özləri sığorta haqqı ödəmir, onların ödəmələri dövlət tərəfindən qarşılanır. Eyni qayda ilə rəsmi şəkildə işsiz kimi qeydiyyata alınan şəxslərin də tibbi sığorta haqları dövlət tərəfindən ödənilir".

Deputat vurğulayıb ki, son günlər sosial şəbəkələrdə yanlış və ya məqsədli şəkildə, bilərək və bilməyərəkdən, şəxsi maraqlar naminə, xüsusən dağıdıcı müxalifətlə bağlı belə fikir formalaşdırılır ki, işsizlər sığorta haqqını özləri ödəməlidir. Əgər işi yoxdursa, o vətəndaş özü sığorta haqqını ödəyəcəkdir. Halbuki həm Milli Məclisin deputatları, həm də məsul dövlət qurumları dəfələrlə açıqlayıb ki, rəsmi işsizlərin sığorta haqları dövlət büdcəsi hesabına təmin ediləcək. Maliyyə naziri də bunu yenidən təsdiqləyib.

M.Məmmədli onu da əlavə edib ki, bununla yanaşı, qeyri-formal məşğul olan şəxslər, yəni faktiki işləyib gəlir əldə edən, lakin əmək müqaviləsi və ya rəsmi qeydiyyatı olmayanlar öz tibbi sığorta haqlarını müəyyən olunmuş məbləğ üzrə özləri ödəyəcəklər:

"Digər şəxslər, yəni əmək müqaviləsi ilə çalışan, rəsmi iş yeri olan işçilər aldıqları əməkhaqqının məbləğinə uyğun olaraq İcbari Tibbi Sığorta Fonduna avtomatik şəkildə ödəniş edirlər. Bu ödənişlər həm işləyən şəxslərin maaşlarından tutulur, eləcə də onları işlə təmin edən dövlət qurumları və özəl təşkilatlar tərəfindən müvafiq qanunvericiliyə əsasən həyata keçirilir. Beləliklə, çalışan şəxslərin İcbari Tibbi Sığorta Fonduna köçürülən vəsaiti həm işçinin, həm də işəgötürən qurumun ayırmalarından formalaşır.

Əlavə olaraq bütün əmək müqaviləsi ilə çalışan şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada İcbari Tibbi Sığorta Fonduna ödənişlər edirlər", - deyə o, fikrini tamamlayıb.

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# Regionların gələcəyi üçün kritik seçim

## İqtisadçıdan irad: "Yaponiya bir şagirdə görə qatar saxlayır, biz isə kənd məktəblərini bağlamağa hazırlaşırıq"

**Regionlarda sosial-iqtisadi inkişafın dayanıqlığı yenidən müzakirə mövzusuna çevrilib. Son illər xüsusilə kənd və qəsəbələrdə şagird sayının azalması fonunda məktəblərin bağlanması ilə bağlı təhlükə aktuallaşıb. Bir müddət əvvəl təhsil naziri Emin Əmrullayev açıqlamışdı ki, şagird sayı çox az olan ümumtəhsil müəssisələrinin birləşdirilməsi gündəmdədir. "Düşünürük ki, 5 və ya 10 şagirdi olan məktəbdə həqiqətən keyfiyyətli təhsil vermək mümkün deyil. Bir sinifdə yox, bütün məktəbdə 10 şagird və hər sinifdə 2 uşaq varsa, biz bu uşaqlara musiqi dərsində xorla birgə oxumağı və ya kollektiv oyunu necə öyrədəcəyik? Bu uşaq məktəbi bitirəndə neçə sinif yoldaşı, neçə dostu olacaq? Ümumiyyətlə, 10 nəfərlik məktəb onun gələcək həyatına necə təsir edəcək? Başa düşürəm ki, orada 10 nəfər təhsil alanda bəlkə 20 nəfərin işi yerində olur, amma bizim işimiz təhsildir və biz çalışırıq ki, keyfiyyət baxımından təhsili yüksəldək", - deyə nazir vurğulayıb".**

Nazirin bu açıqlaması xeyli narazılıq yaradıb. Mütəxəssislər belə qərarların regionların sosial-iqtisadi gələcəyinə ciddi zərbə vuracağını bildirirlər. Onların fikrincə, məktəb bağlanan yerdə nə gənclər qalır, nə ailələr məskunlaşır, nə də iqtisadi aktivlik özünü göstərir. Bu isə uzun müddətdə həmin rayon və kəndlərin boşalmasına, sosial mühitin zəifləməsinə və ümumi inkişaf göstəricilərinin kəskin aşağı düşməsinə səbəb ola bilər.

Əslində nazirin dedikləri bir SOS-dur. Problemin həlli bölgələrdə məktəblərin bağlanması, yoxsa regionları inkişaf etdirib, yeni məktəblərin tikilməsidir?

**İqtisadiyyat üzrə fəlsəfə doktoru, 17 illik pedaqoq Eyyub Kərimli** mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb: "Mən bu məsələyə qismən subyektiv yanaşıram. Çünki uzun illər təhsil sektorunda çalışmışam və təhsilə münasibətim daha həssasdır. Əlbəttə, təhsil hər şeydən öndə gəlir - həm regionlarda məskunlaşmanın davamlılığı, həm də iş yerlərinin qorunması baxımından. Regionda məktəbin mövcudluğu o deməkdir ki, orada xeyli müəllim işlə təmin olunur, insanlar isə daha stabil və keyfiyyətli təhsil alır. Təhsil bizim gələcəyimizdir və təhsilin olmadığı yerdə heç bir inkişafdan danışmaq olmaz.

Məktəblərin birləşdirilməsi məsələsi isə bir çox sual doğurur. Şagirdlərin digər məktəblərə necə gedib-gələcəyi, bu prosesin hansı nəqliyyat vasitələri ilə təmin olunacağı hələ də aydın deyil. Məsələn, Yaponiyada bir şagird üçün belə qatarın dayanması təcrübəsi var.



Uzun illər həmin şagird məktəbə gedib-gələ bilsin deyə qatar xəttini ləğv etməyiblər. Bu, təhsilə verilən dəyərin göstəricisidir.

Bu baxımdan hesab edirəm ki, kiçik məktəblərin fəaliyyətinin davam etməsi həm regionlarda sosial-iqtisadi perspektivi qoruyur, həm iş yerlərini saxlayır, həm də məskunlaşmanı sabitləşdirir. Məktəblərin birləşdirilməsi isə əksinə, kəndlərin inkişafına ciddi mənfi təsir göstərə, onların boşalmasına səbəb ola bilər. Sosial-iqtisadi mühit zəifləyə, kəndlər tədricən yaşayış məntəqəsi statusunu belə itirə bilər. Buna görə də mən bu yanaşmanı müsbət hesab etmirəm".

Yeri gəlmişkən, yalnız Yaponiya deyil, inkişaf etmiş digər ölkələrdə- Norveç, Finlandiya, Kanada və Fransa kimi ölkələrdə kəndlərdə şagird sayı az olsa belə, məktəblər fəaliyyətini davam etdirir və dövlət bu məktəblərin yaşamasını vacib sayır. Məsələn, Norveçin dağ kəndlərində bəzən 6-12 şagirdlik məktəblər olur, amma bağlanmır. Çünki norveçlilər düşünür ki, məktəb bağlanarsa, kənd əhalini itirəcək və boşalacaq. Buna görə də kənd məktəbləri dövlət tərəfindən xüsusi proqramla qorunur.

Təhsil səviyyəsi yüksək olan Finlandiyada da kəndlərdə şagird sayı azalmış olsa belə, 6-10 şagirdlik məktəblər saxlanılır. Dövlət bu məktəbləri "icmanın dayağı" hesab edir və əlavə maliyyə dəstəyi ayırır. Uşaqların sosiallaşması üçün qonşu məktəblərlə tədbirlər və ortaq layihələr təşkil olunur.

Kanadada uzaq və soyuq bölgələrdə bəzən cəmi 5-15 şagirdi olan məktəblər fəaliyyət göstərir. Alternativ olaraq uşaqların hər gün 60-100 kilometr məsafə qət etməli olacağı nəzərə alınsa, məktəbin yerində fəaliyyət göstərməsi daha məntiqli görünür. Bu səbəbdən kiçik məktəblər dövlət üçün həm sosial, həm də təhlükəsizlik baxımından zəruri hesab olunur.

Fransada da kənd məktəblərinin bağlanması kəskin narazılıq doğurur. Səhra və ucqar bölgələrdə 8-12 şagirdlik ibtidai məktəblər çoxdur və əhali bu məktəblərin bağlanmasını "kəndin gələcəyinin bağlanması" kimi qiymətləndirir. Bu ictimai təzyiq səbəbindən dövlət belə məktəbləri tamamilə ləğv edə bilmir.

Bu nümunələr göstərir ki, inkişaf etmiş ölkələrdə məqsəd şagird sayına görə məktəbi bağlamaq deyil, kənddə həyatın və sosial mühitin qorunmasını təmin etməkdir. Çünki bir çox ölkələrdə belə bir qənaət formalaşıb: əgər məktəb bağlanırsa, kənd də zamanla boşalır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

# Azərbaycanda yeni iqtisadi güc mərkəzi yaranır

**Özəl sektorun fəallaşması nəticəsində bu illərdə ümumi investisiya həcmi yüz milyonlarla manat səviyyəsinə çatıb.**

İşğaldan azad edilmiş ərazilərin sürətli iqtisadi yüksəlişi bu gün Azərbaycanın milli inkişaf strategiyasının mərkəzi xəttini təşkil edir. 2021-2025-ci illəri əhatə edən bərpa mərhələsində dövlət bölgənin dirçəlişini yalnız infrastrukturun qurulması ilə məhdudlaşdırmayıb, paralel olaraq iqtisadi, sosial və institusional sahələrdə sistemli reabilitasiya həyata keçirib. Bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin həyata keçirilməsi istiqamətində müxtəlif sahələri əhatə edən bir sıra layihələrin icrası məqsədilə 2021-2025-ci illər ərzində dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait ayrılıb. Bu kompleks yanaşma "Böyük Qayıdış" siyasətinin real iqtisadi təməlinin formalaşmasına imkan yaradıb.

İşğaldan azad edilən ərazilərin iqtisadi inkişafı üçün institusional baza 2021-2022-ci illərdə yaradıldı. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının baş planlarının təsdiqi regionların sektorlar üzrə inkişaf xəritəsini müəyyənləşdirdi. Bu dövrdə Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan ərazilərində sənaye və aqrar istehsal potensialını üzə çıxaracaq kompleks planlaşdırma aparıldı.



Özəl sektorun fəallaşması nəticəsində bu illərdə ümumi investisiya həcmi yüz milyonlarla manat səviyyəsinə çatıb.

Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli Fərmanı ilə yaradılan Ağdam Sənaye Parkında investisiya portfeli 285 milyon manatdan çox olan 30 rezident və 4 qeyri-rezident qeydiyyatdan keçib. Rezident sayına görə ölkə üzrə ikinci yerdə olan sənaye parkında sahibkarlar tərəfindən görülmüş işlərə 138 milyon manata yaxın investisiya yatırılıb, 900-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkı fəaliyyətə başladığı müddətdən indiyədək təxminən 500 milyon manat dəyərində məhsul istehsal olunub, bunun təxminən 18 milyon manatlıq hissəsi ixrac edilib. Burada əsasən tikinti materiallarının, tütün məmulatlarının, müxtəlif növ ayaqqabıların, havalandırma, yanğınsöndürmə və müxtəlif metal məmulatlarının, dəmir yolu avadanlıqlarının, elektrik paylayıcı avadanlıqlarının və elektrik yuvalarının və s. məhsulların istehsalı həyata keçirilir. İstehsal edilən məhsullardan işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quraşdırma işlərində geniş istifadə edilir.

Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli Fərmanı ilə yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ümumi investisiya portfeli 150 milyon manata yaxın olan 18 sahibkarlıq subyekti rezident, 3 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib. Cəbrayıl rayonunda yerləşən sənaye parkında sahibkarlar tərəfindən indiyədək 3,4 milyon manatlıq, həmçinin, bu ilin I yarısında 2,7 milyon manatlıq məhsul satışı edilib.

Kiçik və orta biznes (KOB) subyektlərinin dəstəklənməsi məqsədilə KOBİA-nın Laçın rayonunda "KOB dostu" (2024), Zəngilan (2022), Kəlbəcər (2025) və Füzulidə (2025) xidmət pəncələri (mövcud infrastrukturlarda), eləcə də Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzində "KOB evi" (2024) fəaliyyət göstərir. Bu xidmət infrastrukturu şəbəkəsi KOB-ların dövlətin dəstək alətləri, o cümlədən KOBİA-nın göstərdiyi dəstək mexanizmləri barədə məlumat, məsləhət xidməti, əlaqələndirmə və s. dəstək və xidmətlər almasını təmin edir. "Şuşa KOB evi"ndə isə sahibkarlara dövlət və özəl qurumlar tərəfindən müxtəlif xidmətlər göstərilir.

Sahibkarların maliyyə çıxış imkanının artırılması istiqamətində təklif olunan yeni mexanizm çərçivəsində 2024-cü il və 2025-ci ilin ötən dövrü ərzində 43 layihə üzrə 55,9 milyon manat kreditə 47,8 milyon manat zəmanət verilib. Eyni zamanda sahibkarlıq subyektləri tərəfindən əldə olunmuş bank krediti faizlərinin subsidiyalaşdırılması məqsədilə 3,8 milyon manat vəsait ödənilib.

Bununla yanaşı, müvəkkil kredit təşkilatlarından İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fonduna daxil olmuş müraciətlər əsasında indiyədək işğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihələrə 45,6 milyon manat güzəştli kredit vəsaiti verilib.

Eyni zamanda Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə müvəkkil banklar tərəfindən 2022-2025-ci il tarixlərində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən 7 layihə üzrə 1,74 milyon manat məbləğində kredit verilib. Bu kreditlər üzrə Fond tərəfindən 587,5 min manat məbləğində zəmanət verilib. Kreditlər əsas etibarilə Ağdam, Laçın, Zəngilan rayonlarında və Xankəndi şəhərində nəqliyyat və anbar təsərrüfatı, emal sənayesi və digər sahələrdə, o cümlədən yükdaşıma, texnika və avadanlıqlara təmir xidmətləri üzrə layihələrə ayrılıb.

Bu addımlar regionun iqtisadi müstəqilliyinin gücləndirilməsinə, sənaye məhsullarının daxili bazara çıxışını təmin etməyə xidmət edir. (APA-nın materialları əsasında hazırlanıb).

YENİ MÜSAVAT
N 221 (8831) 5 dekabr 2024

# Pul köçürmələri niyə azalır?

## Azalma tendensiyası artıq ikinci ildir davam edir



**Azərbaycan Mərkəzi Bankı əvvəlcə 2025-ci il üçün cari hesabın profisitini 3,7 milyard dollar səviyyəsində proqnozlaşdırmışdı. Bu hesablamalar neftin bir barrelinin 70 dollar olması ssenarisi üzərində qurulmuşdu. 2024-cü ildə profisit 4,7 milyard dollar təşkil edib ki, bu da 2023-cü illə müqayisədə 1,8 dəfə azdır.**

"AzPolitika" "Haqqin.az"a istinadla bildirir ki, bununla da cari hesab üzrə azalma tendensiyası artıq ikinci ildir davam edir.

Mütəxəssislər bildiriblər ki, əsas səbəb ticarət balansının daralmasıdır. İxrac gəlirləri hələ də əsasən neft və qaz satışından formalaşır. Eyni zamanda idxal daha yüksək templə artır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin ilk 10 ayında ölkənin ümumi ixracı 21,64 milyard dollar olub. Bunun 18,65 milyard dolları neft-qaz sektorunun payına düşüb. İdxal isə 19,23 milyard dollara çatıb ki, bu da ticarət nisbətini zəiflədən əsas amillərdəndir.

Qeyd olunub ki, cari ildə Azərbaycan ötən illə müqayisədə 190 min ton artıq neft ixrac etsə də, dünya bazarlarında qiymətlərin azalması səbəbindən gəlir kəskin düşüb. Belə ki, 20,76 milyon ton neftdən əldə edilən gəlir cəmi 10,85 milyard dollar təşkil edib. Halbuki 2024-cü ildə 20,57 milyon ton neftin satışı büdcəyə 12,8 milyard dollar qazandırmışdı. Beynəlxalq maliyyə institutlarının xəbərdarlıqlarına əsasən, neft və qazın orta qiymətlərində azalma 2026-cı ildə də ixrac gəlirlərinə təzyiq göstərməkdə davam edəcək.

Analitiklər qeyd edirlər ki, cari hesab balansına təsir edən amillər sırasında gömrük tarifləri, fiskal siyasət, büdcə xərcləri və daxili tələbin strukturu xüsusi rol oynayır. Bundan əlavə, xarici investisiyalardan daxil olan xalis gəlirlər və pul köçürmələri də mühüm göstəricilərdir.

ING analitikləri 2025-ci ildə Azərbaycana göndərilən pul köçürmələrinin ciddi şəkildə azaldığını bildiriblər. Onlar bunu Rusiya-Azərbaycan münasibətlərinin pisləşməsi və Ukraynadakı müharibə fonunda Rusiyada gəlirlərin aşağı düşməsi ilə izah ediblər. Çünki köçürmələrin əsas hissəsi ənənəvi olaraq Rusiyadan gəlirdi. Nəticədə hər iki istiqamətdə pul axını ciddi şəkildə zəifləyib.

Ölkə iqtisadiyyatında daxili investisiyaların payı artdığı üçün birbaşa xarici investisiyaların xüsusi çəkisi də azalır. Hökumətin proqnozlarına əsasən, 2026-2029-cu illərdə xarici investisiyaların həcmi illik 6-6,6 milyard manat arasında dəyişəcək. Ümumi kapital qoyuluşu isə 25-28 milyard manat olacağı gözlənilir. Bu investisiyaların gəlirliliyi ilə bağlı rəsmi proqnoz isə açıqlanmamış qalır.

Rəsmi qurumlar həmçinin bildiriblər ki, yaxın dörd il ərzində manatın məzənnəsinin stabil saxlanılması planlaşdırılır. Bu, valyuta məzənnəsinin dəyişkənliyinin idxal və ixraca təsirini minimuma endirəcək. ÜDM-in artım templərinin isə orta səviyyədə qalacağı qeyd olunur.

ING Group-un qiymətləndirməsinə görə, Azərbaycanda hasilatın azalması və neftin qlobal qiymətlərinin ucuzlaşması ticarət balansını tədricən "daraldır". Bu da cari hesabın profisitdən defisitə keçməsi ehtimalını artırır. Analitiklər hesab edirlər ki, mövcud tendensiya fonunda profisitin azalması qaçılmazdır. Yeganə yaxşılaşdırıcı faktor neft və qazın yüksək qiymətləri ola bilər, lakin ekspertlər yalnız qiymət artımına bel bağlamağın riskli olduğunu vurğulayırlar.

Beynəlxalq maliyyə təşkilatlarının proqnozları da eyni xətti təkrarlayır. Fitch Ratings 2025-ci ildə cari hesab profisitini 4 milyard dollar (ÜDM-in 5,3 faizi) səviyyəsində qiymətləndirir və 2026-cı ildə bunun 4,9 faizə düşəcəyini gözləyir. Dünya Bankı 2026-cı il üçün 5,4 faiz, 2027-ci il üçün 3,8 faiz, 2028-ci ildə 3,6 faiz və 2029-cu ildə 3,4 faiz proqnozlaşdırıb.

BVF isə 2026-cı ildə profisitin 3,4 milyard dollar (4,1 faiz) olacağını açıqlayıb. Azərbaycan hökuməti isə göstəricini 3-5 faiz intervalında saxlamağı planlaşdırır.

Xatırladaq ki, cari hesab profisitinin tarixi maksimumu 2022-ci ilin üçüncü rübündə - 7,38 milyard dollar səviyyəsində qeydə alınmışdı. Bu, Ukraynadakı müharibə və Avropanın enerji təhlükəsizliyi ilə bağlı narahatlıqlar fonunda enerji daşıyıcılarının qiymətinin kəskin yüksəlməsi ilə bağlı idi. Antirekord isə 2020-ci ilin payızında qeydə alınmış 806 milyon dollarlıq rüblük defisit olmuşdu.

Ekspertlər bildiriblər ki, qlobal iqtisadi vəziyyətdən asılı olaraq proqnozlara yenidən baxıla bilər. Lakin beynəlxalq qurumların profisitin azalacağı ilə bağlı yekdil mövqeyi və ixracın şaxələndirilməməsi fonunda defisit riskinə diqqət çəkməsi Azərbaycan hökumətini və Mərkəzi Bankını daha proaktiv siyasətə sövq etməlidir.




# Otel sahiblərinin "cib bayramı" başlayır

## Qiymətlər 1600-2500 manat arasında dəyişir

**Bayram ərəfəsində otellərin qiymətlərində kəskin artım müşahidə olunur.**

Xüsusilə Yeni il və digər bayram günlərində otel qiymətləri bəzən adi günlərə nisbətən iki-üç dəfə yüksəlir ki, bu da ailə büdcəsinə ciddi yük yaradır.

Artan xərclər səbəbindən bir çox ailə və fərdlər bayramı ölkə daxilində deyil, xaricdə qeyd etməyi üstün tuturlar. Səyahət zamanı bilet, otel, qida, nəqliyyat və əyləncə xərcləri kimi amillərin hər biri büdcəyə təsir göstərir və ailələrin seçimlərini formalaşdırır.

Yeni ili xaricdə keçirmək istəyənlər üçün hansı ölkələr daha sərfəlidir?

Mövzu ilə bağlı cebheinfo.az - a açıqlama verən turizm eksperti Ceyhun Aşurov da təsdiqləyib ki, hər il bayram ərəfəsində otellərdə qiymət artımı müşahidə olunur: "Qeyri-iş günləri və bayramlarda insanların daxili bazarda səyahət tələbatı artır, rezervasiyalar çoxalır. Bu səbəbdən qiymətlər ilin digər dövrləri ilə fərqlənir və adi iş günlərinə nisbətən yüksəlir. Regionlardakı otellərin bir çoxu həftə içi boş, həftə sonu isə dolu olur və buna uyğun olaraq işlərini tənzimləyirlər.

Lakin ardıcıl qeyri-iş günlərində tələbatın artması qiymətlərin yüksəlməsinə səbəb olur". Onun sözlərinə görə, bəzən verilən qiymətlər bəzi xidmətləri də əhatə etdiyindən daha yüksək olur:

"Bu, xüsusilə 5 ulduzlu və bayram şənlikləri təşkil edən otellərdə müşahidə olunur. Belə paketlərdə iki nəfərlik qiymətlər təxminən 1600-2500 manat arasında dəyişir. Məsələn, iki gecə, üç günlük Yeni il şənliyini əhatə edən paketlərdə bazarda belə təklifləri görmək mümkündür".

Ekspert qeyd edib ki, yeni ildə xaricdə yaxşı istirahət etmək də mümkündür:

"Qiymətlər adambaşı təxminən 500-1500 dollar arasında dəyişir. Əsasən şəhər turları, məsələn, Tbilisi, İstanbul, Doha və Dubay istiqamətlərində 4 gecə qalmaq şərti ilə həm uçuş bileti, həm də oteldə səhər yeməyi daxil paketlər təqdim olunur.

Misir istiqamətində isə hər şey daxil paketləri adambaşı 600-1000 dollar qiymətə əldə etmək mümkündür. Bir qədər baha seçimlər isə Maldivlər və Şri-Lanka turlarıdır ki, qiymətlər təxminən 1500-2000 dollar civarındadır".

# Distant iş hansı sektorda tətbiq olunacaq?

## Deputat: "Karantin dövrü göstərdi ki..."

**Bu model ən çox hansı sahələrdə tətbiq oluna biləcəyi, müxtəlif sektorlar üçün hansı tənzimləyici mexanizmlərin formalaşacağı və iqtisadi sistemə necə təsir edəcəyi kimi suallar da özü ilə aktuallaşdırır.**

Azərbaycanda evdən və məsafədən (distant) iş rəsmiləşir. Əmək Məcəlləsinə müvafiq dəyişiklik artıq komitə iclasları səviyyəsində müzakirə olunur.

Bu model ən çox hansı sahələrdə tətbiq oluna biləcəyi, müxtəlif sektorlar üçün hansı tənzimləyici mexanizmlərin formalaşacağı və iqtisadi sistemə necə təsir edəcəyi kimi sualları da özü ilə aktuallaşdırır.



**Mövzu ilə bağlı açıqlama verən MM-in İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov** bildirib ki, distant işləmək təcrübəsi koronavirus infeksiyası ilə bağlı karantin tədbirləri zamanı aktual oldu: "Həmin dövr göstərdi ki, uzaqdan iş fəaliyyəti qurmaq mükündür. Ondan sonra bəzi müəssisələr hətta indi də öz əməkdaşlarının bir hissəsinə distant işləmək imkanı yaramaqda davam edir. Distant fəaliyyət əmək məsuliyyətini azaltmamalı və görülən işin keyfiyyətinə mənfi təsir göstərməməlidir. Təbii ki, əyani işin səmərəliliyi distant işdən daha çoxdur. Bəzi sahələrdə isə işçilərin gün ərzində görməli olduğu dəqiq planlar olduğundan işçi müəyyən olunmuş müddətdə həmin planı icra edirsə, deməli iş keyfiyyətli icra olunmuş hesab olunur".

Deputat vurğulayıb ki, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda distant işi hələki mümkün hesab olunmur:

"Dövlət orqanlarında hər bir əməkdaş vaxtında öz iş yerinə gəlib vətəndaşlara xidmət etməlidir. Amma özəl sektorda fəaliyyətlər müəyyən çərçivədə olduğundan bu sahələrdə konkret fəaliyyətlərə distant iş metodunu tətbiq etməkdə bir çətinlik görmürəm. Bu gün internet resursları hər bir işçiyə dünyanın istənilən nöqtəsindən işləməyə imkan verir. Hətta Almaniyada bank sektorunda işləyən soydaşlarımızın ölkəmizə gələrək öz evindən aylarla fəaliyyət göstərdiyi halları müşahidə etmişik. Bu baxımdan bank sektoru, süni intellekt, proqramlaşdılma, mühasibatlıq və s. sahələrdə məsafədən işləmək mümükündür", - deyə Azər Badamov vurğulayıb.

Distant işin iqtisadiyyata təsirindən də danışan A. Badamov burada mənfi və ya müsbət təsirin olacağını düşünmədiyini qeyd edib:

"Bakı kimi tıxacların əlindən avtomobillərin hərəkətinin çətin olduğu bir şəhərdə müəyyən sahələrdə distant iş tətbiq olunarsa yaxşı olar. Yeni yollarda tıxacların azalmasına müsbət təsir göstərər. Tıxacların sıx olması əməkdaşların işə gəlməyini də çətinləşdirir. Belə ki, bəzi hallarda işə gecikmələr də baş verir. Bu da tıxaclarda dayanaraq yorğun və əsəbi olan əməkdaşın iş qabiliyyətinə də mənfi təsir göstərir. Bunun baş verməməsi üçün distant işləmək mümkün olan sahələrdə bu üsuldan istifadə olunarsa, bu həm müəssisəyə, həm də işçilərə faydalı olar. Həm də yollarda avtomobillərin azalmasına təsir göstərər".

# Qazaxıstanın neft nəqli üçün alternativi-Azərbaycan gündəmdə

## Azərbaycan Qazaxıstan neftini dəmiryol vasitəsilə Gürcüstanın Qara dəniz limanlarına da daşıya bilər

**Ukraynanın Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk neft terminallarına zərbələri Qazaxıstanı yenidən öz nefti üçün alternativ nəql imkanları üzərində işləməyə vadar edir. Rəsmi Astana Rusiya-Ukrayna müharibəsinin kəskin dövründə neftinin 90 faizini nəql etdiyi Xəzər Boru Kəmərinin(XBK) çıxdığı Novorossiyskdə baş verənlərdən ciddi şəkildə narahat olmağa başlayıb: Ukraynaya rəsmi etiraz göndərilib. Kiyev isə Qazaxıstanı Rusiyanın Ukraynanın analoji obyektlərinə zərbələrinə susmaqda ittiham edib.**

Qazaxıstan bu proseslərin fonunda nefti üçün alternativləri bir daha masaya gətirməli olub. Ölkə mətbuatının yazdığına görə, Astananın əlində XBK-ya 3 alternativ var: Çin, Almaniya və Azərbaycan üzərindən nəql.

Hazırda Qazaxıstandan Çinə mövcud boru kəməri ilə ildə 1.2 milyon ton neft nəql olunur. Son illərdə kəmərin ötürücülük gücünün 10 milyon tona çatdırılması məsələsi dəfələrlə Çin-Qazaxıstan hökumət nümayəndələrinin müzakirəsinə çıxarılıb. Qazaxıstan iki il əvvəl Atırau-Kenkiyak və Kenkiyak-Kumkol kəmərlərinin tutumunun artırılması daxildir, Şımkent Neft Emalı Zavodunun istehsal gücünün ildə 6 milyon tondan 12 milyon tona qədər çatdırılması sahəsində Çinə əməkdaşlıq təklif edib. Bu sahədə Çin Milli Neft Korporasiyası (CNPC) ilə əməkdaşlığa başlanıb.

Açıqlanan məlumata görə, Çin kəmərlərin ötürücülük gücünün artırılmasında iştirak üçün Astanadan illik 10 milyon ton həcmə zəmanət istəyib. Astana bildirir ki, Qazaxıstan-Çin boru kəmərinin iki hissəsinin (Atırau-Kenkiyak və Kenkiyak-Kumkol) 200 milyon dollarlıq genişləndirilməsi Qazaxıstan neftinin Çinə ixracını artırmaqla yanaşı, həm də Pavlodar və Şimkentdəki neft emalı zavodlarını yerli neftlə təmin edəcək.

Kəmərlərin gücünün artırılması üçün bir neçə əlavə neft nasos stansiyasının tikilməsinnə ehtiyac var.

Pavlodar Neft Emalı Zavodu Rusiya nefti ilə işləyir. Ona çatdırılan neftin əvəzində Qazaxıstan eyni həcmi Xəzərdəki yataqlardan Rusiyaya çatdırır. Qazaxıstan artıq Şımkent Neft Emalı Zavodunun emal gücünün 2030-cu ilə qədər 12 milyon tona qədər genişləndirilməsini nəzərdə tutan layihənin icrasına başlayıb. Bununla eyni vaxtda CNPC ilə KazMunayQaz arasında Kenkiyak-Atırau hissəsində Qazaxıstan-Çin neft boru kəmərinin genişləndirilməsi üzrə imzalanıb. Çin Milli Neft Korporasiyası (CNPC) uzun illərdir Qazaxıstanda fəaliyyət göstərir. O, Kaşağan layihəsinin 8,33 faizinə, ManqistauMunayGaz-ın 50 faizinə və Petrokazaxstan Inc.-in 67 faizinə sahibdir. CNPC Qazaxıstan-Çin neft boru kəmərinin, Qazaxıstan-Çin qaz boru kəmərinin və Beineu-Bozoi-Şimkent qaz boru kəmərinin tikintisində iştirak edib.

Hazırda Qazaxıstan daha bir çətin seçim qarşısındadır: ABŞ sanksiyalarına məruz qalan Rusiyanın Rosneft şirkətinə məxsus neftin öz ərazisindən Çinə nəqlini dayandırıb-dayandırmamağa qərar verməlidir.

Qeyd edək ki, Rosneft şirkəti Priirtyshsk-Atasu-Alaşankou marşrutu ilə Qazaxıstan vasitəsilə Çinə neft tədarük edir. Qazaxıstan-Çin boru kəməri iki hissədən ibarətdir: ildə 20 milyon ton neft tutumuna malik və Çinə neft vuran Kenkiyak-Atasu-Alaşankou boru kəməri və ildə 6 milyon ton neft tutumuna malik Kenkiyak-Atırau boru kəməri. Qazaxıstan tranzit neftinin bir hissəsini tarixən Sibir neftindən asılı olan Pavlodar Neft Emalı Zavodunu qidalandırmaq üçün istifadə edir və bunun müqabilində Çinə ekvivalent həcmdə Qazaxıstan nefti göndərir. Qazaxıstan və Rusiya hökumətləri 2013-cü ildə Qazaxıstan vasitəsilə Çinə 7 milyon tona qədər Rusiya neftinin tranziti barədə razılığa gəliblər. 2014-cü ildə bu həcm ildə 10 milyon tona qədər artıb. Mövcud nəql müqaviləsi 1 yanvar 2034-cü ilə qədər müddəti əhatə edir.

Nəql davam edərsə, Qazaxıstan ikincili ABŞ sanksiyalarına məruz qala bilər. Buna görə də Qazaxıstan Energetika Nazirliyi ABŞ sanksiyaları tənzimləyicisi olan OFAC-a müraciət edib. OFAC istisnaya razılıq verməsə, Qazaxıstan Rusiya neftinin öz ərazisindən Çinə nəqlini dayandırmalı olacaq. Bu isə Qazaxıstanın özü üçün həmin kəmərlə neft nəqlini təmin etmək imkanı yarada bilər. Lakin bunun üçün hasilat mənbələri ilə kəmərin əlaqələndirilməsi lazımdır ki, bu da uzun müddət və əlavə investisiya qoyuluşu tələb edir.

Qazaxıstan 2023-cü ildən Novorossiysk limanından əlavə, Rusiyanın Drujba neft kəməri ilə də Avropaya - daha dəqiqi, Almaniyaya neft nəql etməyə başlayıb. Astana bu neft kəməri ilə Qaraçaqanak və Kaşaqandan Almaniyaya xammal ixrac edir. 2024-cü ildə Drujba vasitəsilə Almaniyaya 1,5 milyon ton neft çatdırılıb. Bu il ölkə ixracı 2,5 milyon tona çatdırmağı planlaşdırır.

Econovis xəbər verir ki, 2024-cü ildə Qazaxıstan Avropa İttifaqına xam neft ixrac edən ölkələr arasında üçüncü yeri tutub. Statistikaya görə, Aİ ölkələri 2024-cü ildə gündəlik ümumilikdə 9,1 milyon barel neft idxal edib. Ən böyük tədarük həcmi ABŞ-dən sutkada 1,40 milyon barel (15,4 faiz artım), Norveçdən 1,10 milyon barel (12,1 faiz artım) və Qazaxıstdan 1,05 milyon barel (11,5 faiz artım) qeydə alınıb.

Reuters Kaztransoil-a istinadən yazır ki, Qazaxıstan 2025-ci ilin birinci yarısında Drujba vasitəsilə Almaniyaya neft ixracını illik müqayisədə 46 faiz artıraraq 926 min tona çatdırıb. bu ilin birinci yarısında Qazaxıstan 49,9 milyon ton neft hasil edib - bu, 2024-cü ildəkindən 11,6 faiz çoxdur. Altı ayda ixraca illik ifadədə 11,9 faiz çox - 39,6 milyon ton neft yönəldilib. İlin yekununda ölkədə 96,2 milyon ton neft hasil ediləcəyi və onun 70,5 milyon tonunun ixrac olunması planlaşdırılır.

Qazaxıstanın XBK-yə daha bir alternativi Xəzər dənizi və Azərbaycan üzərindən nəqldir. Son 3 ildə Qazaxıstan dəfələrlə Azərbaycan üzərindən neft ixracını artırmaq, bunun üçün Bakı-Supsa kəmərindən istifadə etmək planlarını açıqlayıb. Bir qayda olaraq bu plan Rusiya XBK kəməri ilə nəqlə problem yaradanda gündəmə gətirilir, lakin sonra yenidən arxa plana keçir. Buna səbəb, əlbəttə, Azərbaycan üzərindən nəql xərclərinin XBK-dən daha yüksək olmasıdır: Neft Aktau limanına daşınır, oradan tankerlərlə Bakının Səngəçal terminalına daşınır, oradan isə Bakı-Tiflis-Ceyhan neft kəmərinə vurulur. Buna görə də Qazaxıstan Azərbaycan üzərindən nəqlə alternativ marşrut kimi baxsa da, daha çox ehtiyat variant yanaşması sərgiləyir.

Qazaxıstan neftini Bakıya yola salan Aktau limanında hazırda illik gücü 7,5 milyon ton olan üç neftyükləmə qurğusu fəaliyyət göstərir. Aktau Beynəlxalq Dəniz Ticarət Limanının kommersiya işləri üzrə icraçı direktoru Əhməd Mustafinin dediyinə görə, Liman Novorossiyskdəki SPM-ə bənzər bir nöqtəli yanalma qurğuları (SPM) qurmaqla yaxın illərdə neft daşınmasını 20 milyon tona çatdıra bilər: "Biz indi 7,5 milyon ton yükləyə bilirik. Neft daha çox olarsa, iki ildən sonra onu 20 milyon tona çatdıra bilərik".

Onun sözlərinə görə, Azərbaycan Bakı-Tiflis-Ceyhan (Azərbaycan-Gürcüstan-Türkiyə) marşrutu üzrə nəql etmək üçün ildə 2,2 milyon tondan çox olmayan Qazaxıstan neftini qəbul etməyə hazırdır. Məsələ burasındadır ki, bu kəmərdə əsas məhsul Azərbaycanın yüngül neftidir, ona görə də kəmərə 2,2 milyon tondan çox Qazaxıstan nefti daxil olarsa, yaranan qarışıq keyfiyyətsiz olacaq və Azərbaycanın öz neftinə görə əldə etdiyi gəlirə mənfi təsir edəcək. Belə ki, BTC ilə yalnız Qazaxıstan deyil, Türkmənistanın da nefti nəql olunur. Azərbaycanın öz ixracı isə ildən-ilə azalır. Belə olan şəraitdə BTC ilə ağır növ neft nəqli imkanları da azalır.

Bakı-Supsanın ötürmə qabiliyyəti isə ildə 7 milyon tondan artıqdır. Uzunluğu 837 kilometr olan Bakı-Supsa neft boru kəməri 1997-1998-ci illər ərzində çəkilib. Azərbaycan neftini Qərb istiqamətinə nəql edən bu kəmər Səngəçal terminalından başlayaraq Gürcüstan Qara dəniz sahilindəki Supsa terminalına qədər uzanır. Diametri 530 millimetr olan Bakı-Supsa kəmərinə neftin vurulmasına 1998-ci ilin dekabrında başlanıb.




İlk vaxtlarda bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Çıraq" və "Azəri" yataqlarından çıxarılan neft nəql olunub. Belə ki, Bakı yaxınlığındakı Səngəçal terminalından Qara dəniz sahilində yerləşən Supsa limanına göndərilən xam neft buradan tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınıb. 2021-ci ilin yekunlarına əsasən, Bakı-Supsa boru kəməri ilə 4,2 milyon ton neft nəql olunub. İxrac olunan bütün neft "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun payına düşüb. 2022-ci ildə kəmərdəki əsaslı təmirə görə nəql dayandırılıb. Lakin 2023-cü ildən proses cüzi həcmlərlə də olsa, bərpa edilib. Azərbaycan Energetika Nazirliyinin 2024-cü ilə dair fəaliyyət hesabatından aydın olur ki, 2023-cü ildə Bakı-Supsa ilə 150 min ton neft ixrac edilib. 2024-cü ildə bu göstərici 40 faizdək azalaraq 90 min ton təşkil edib. Belə kiçik həcmlərin nəqlini kəmərin operatoru olan BP Azərbaycan şirkəti sifarişlərin az olması ilə izah edir.

Azərbaycan Qazaxıstan neftini dəmiryol vasitəsilə Gürcüstanın Qara dəniz limanlarına da daşıya bilər. Bu istiqamətdə Türkmənistan nefti daşınır.

Üst-üstə götürdükdə, mövcud nəql imkanları ilə Azərbaycan ildə 20 milyon tona yaxın Qazaxıstan neftini nəql edə bilər. Əsas məsələ kommersiya şərtlərinin uyğunlaşdırılmasıdır.

Çinə ixracın artırılması Pekinin dünya bazar qiymətindən xeyli aşağı qiymət təklifi ilə səmərəsi itirir.

Dünya bazarında neft qiymətlərinin ucuzlaşdığı indiki mərhələdə Qazaxıstan üçün ən əlverişli marşrut bu baxımdan XBK olaraq qalır...

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
Son səhifə
N 221 (8831) 5 dekabr 2025
Dekabr

## Bunları bilirsinizmi?

* Kirpi ilin 236 gününü yatır.
* Qərənfili və qızılgülü eyni güldana qoyduqda ətirləri itir.
* Fotoaparat yeni yarandığı vaxtda şəkil çəkdirənlər onun qarşısında 20 dəq. dayanmalı olurdular.
* Yunan və gürcü əlifbasında böyük hərf yoxdur.
* İlk üstüörtülü hovuz 1742-ci ildə Londonda inşa edilib.
* Fildə 35, itdə 39, quşlarda 42 rəqəmi bədən temperaturudur.
* İlk eskalator 1911-ci ildə Londonda açılmışdır.
* Görkəmli səyyah Tur Heyerdal səfərə çıxanda aclığını yatırmaq üçün özü ilə həmişə qoz götürürmüş.
* Ayay adlı meymun cinsinin boyu 40, quyruğu 60 sm olur, həşəratlarla qidalanır.
* Hindistanda matəm və hüzn rəngi ağ rəngdir.
* Çin otellərində xidmətçilərə "çay pulu" vermək təhqir sayılır.
* Azərbaycanın işğal faktını ilk dəfə ədəbiyyata "Gülzar" hekayəsilə Cəfər Cabbarlı gətirmişdir.
* Keçmişdə arpa (1 karat) ən kiçik çəki vahidi hesab olunurdu.
* Karfogen sərkərdəsi Hannibalın evini mühasirəyə alan romalıların əlinə keçməsin deyə, o özünü zəhərləyərək öldürüb.
* Hindistanda bitən Kennel ağacının meyvəsini yeyən insanlar fialka ətri saçır.
* Orizona statının milli parkına daxil olan hər kəsin üzərinə azanda tapılması üçün xüsusi aerozol vururlar.

# İnsultdan sonra beyni tez bir zamanda barpa etməyin yolu tapılıb



Avstraliya və ABŞ-dən olan alimlər boyundakı limfa damarlarını stimullaşdıran qeyri-invaziv ultrasəs cihazı hazırlayıblar. Bu stimullaşdırma insultdan sonrakı ilk saatlarda beyindən artıq maye və zəhərli tullantıların çıxarılmasını sürətləndirir. Oxu.Az xəbər verir ki, tədqiqatın nəticələri Monaş Universitetinin saytında dərc edilib. Alimlərin sözlərinə görə, cihaz işəmik insult səbəbindən beyin qan dövranı pozulmuş xəstələrə kömək etmək üçün nəzərdə tutulub. Tədqiqatçılar yaranmış qan laxtasını parçalamaq əvəzinə, beynin təbii təmizləmə sistemini gücləndirməyi daha faydalı hesab edirlər. Alimlər hazırda qabaqcıl neyrogörüntüləmə üsulundan istifadə edərək 140 könüllünün beyin strukturlarını öyrənir və eyni zamanda limfa damarlarının funksiyasını artıran cihazların ilk prototiplərini sınaqdan keçirirlər. Müəlliflər vurğulayırlar ki, bu strategiya təcili xəstəxanaya yerləşdirilmə tələb edən və qanaxma riski daşıyan mövcud metodlara alternativ ola bilər.

## Avropada kişi və qadınların qazancı arasındakı fərq açıqlandı



Avropa Gender Bərabərliyi İnstitutu (EIGE) yenilənmiş Gender Bərabərliyi İndeksini açıqlayıb. Avropa İttifaqının ümumi balı 100 baldan 63.4 təşkil edib. Hesablamalara görə, hazırkı templə tam bərabərliyə nail olmaq üçün ən azı 50 il vaxt lazım olacaq.Cinslər arasındakı əsas sosial problem əməkhaqqı fərqi olaraq qalır. Aİ-də qadınlar orta hesabla kişilərin illik gəlirinin yalnız 77%-ni qazanırlar. Bu, o deməkdir ki, qadınlar kişilərin bir ildə qazandıqları məbləği əldə etmək üçün 15 ay 18 gün işləməlidirlər. Gender bərabərliyi indeksində İsveç 73.7 balla lider olaraq qalır. Ardınca Fransa (73.4) və Danimarka (71.8) gəlir. Ən pis vəziyyət Kiprdə (47.6 bal), Macarıstanda (51.6) və Çexiyada (53.2) müşahidə olunur.

## Yaponlardan inanılmaz ixtira: hər kəs üçün uyğun qan tapıldı

Yaponiyalı alimlər qan qruplarından asılı olmayaraq hər kəs üçün uyğun olan süni qan hazırlayıblar. Bu barədə "Unian" məlumat yayıb. Qeyd olunur ki, bu texnologiya sınaq mərhələsindədir və təcili tibbi yardımda əsl inqilab hesab oluna bilər.

Məlumata görə, adi qan cəmi bir ay saxlanıla bildiyi halda, yeni süni qan iki ilə qədər qalır. Alimlər hesab edirlər ki, bu inkişaf minlərlə insanın həyatını xilas edə bilər.

# Çində tabuta qoyulan 95 yaşlı qadın altı gündən sonra "dirildi"



Çinin Quansi bölgəsində öldüyü güman edilən 95 yaşlı Li Syufen gözlənilmədən altı gün sonra "dirilib". Oxu.Az "The Mirror" nəşrinə istinadən xəbər verir ki, Çin adətlərinə əsasən, qadının cəsədi tabuta qoyularaq yaxınlarının onunla vidalaşması üçün bir müddət evinin qarşısında saxlanılıb. Yerli sakinlər qadını mətbəxdə yemək bişirən görüb və tabutun boş olduğunu anlayınca təşvişə düşüblər. Syufen bildirib ki, həddindən artıq aclıq hissi ilə ayılıb və tabutun qapağını öz gücü ilə açıb. Həkimlər qadına nəfəs almanın, demək olar ki, hiss edilmədiyi nadir bir xəstəlik diaqnozu qoyublar. Yerli ənənələrə uyğun olaraq isə öldüyü güman edilən qadının bütün əşyaları artıq yandırılıb.

## Sinqapurda ikinci ailəsini birinci arvadından 30 il gizlədən kişi həbs edilib



Sinqapurda kişi ikiarvadlılığa görə həbs edilib. Oxu.Az bu barədə "Channel NewsAsia" telekanalına istinadən xəbər verir. Bildirilir ki, 67 yaşlı Teonq Min ikinci ailəsini birinci arvadından 30 il gizlədib. Birinci həyat yoldaşı həqiqəti yalnız bu il Sinqapurun Miqrasiya və Sərhəd Nəzarəti İdarəsi tərəfindən Min barəsində başlanmış araşdırma zamanı öyrənib. Qadın indi nikahın ləğvi üçün müraciət etməyə hazırlaşır.

Məhkəmə Sinqapur vətəndaşını 1 il 5 ay həbs cəzasına məhkum edib. Qeyd edək ki, Sinqapurda ikiarvadlılıq cinayət hesab olunur və həbs cəzası, yaxud böyük məbləğdə cərimə ilə cəzalandırılır.

## Qadın morqda oyanandan sonra həyatını itirdi



Böyük Britaniyada təcili tibbi yardım əməkdaşlarının ölü elan etdiyi qadın daha sonra morqda ayılıb. Oxu.Az xəbər verir ki, bu barədə "The Sun" nəşri xəbər yayıb. Məlumata əsasən, 54 yaşlı Oliviya Martin səhər yeməyi hazırlayarkən qəfildən özünü pis hiss edib və huşunu itirib. Onun həyat yoldaşı təcili yardım çağırıb. Hadisə yerinə gələn tibb işçiləri isə qadının öldüyünü elan edərək "cəsədi" morqa aparıblar.

Lakin morqda qadın "həyat əlamətləri" göstərməyə başlayıb. Həkimlər vəziyyəti qiymətləndirib nə edəcəklərinə qərar verənə qədər Oliviya Martin bu dəfə həqiqətən həyatını itirib. Araşdırma zamanı məlum olub ki, Oliviya Martin hələ sağ ikən morqda iki saat saxlanılıb.

## ABŞ-də yenot içki mağazasına girdi, "dequstasiya"dan sonra dükanı dağıtdı

ABŞ-nin Virciniya ştatında yenot spirtli içki məhsullarının satıldığı mağazaya soxulub və bir neçə şüşənin içindəkinin dadına baxdıqdan sonra oraları darmadağın edib. Oxu.Az-ın xəbərinə görə, bu barədə "New York Post" nəşri yazıb. Heyvanlara nəzarət üzrə xidmətin əməkdaşı Samanta Martinin sözlərinə görə, heyvan, böyük ehtimal, tavandan yıxılaraq mağazaya düşüb. O, yenotu tualetin yaxınlığında "sərxoş" halda yatarkən tapdığını və sonra onu veterinara apardığını bildirib.

"Bir neçə saat yatdıqdan və zədə əlamətləri aşkar edilmədikdən sonra o, təhlükəsiz şəkildə yenidən vəhşi təbiətə buraxılıb", - deyə yerli hakimiyyət orqanları qeyd ediblər. Onlar həmçinin Martinə vəziyyətdən peşəkarcasına çıxdığına görə təşəkkür ediblər.

## CAR-da 200 min il əvvəl yaşamış insanların qalıqları aşkar edilib

Cənubi Afrika Respublikasından və Avropadan olan paleogenetiklər indiki CAR ərazisində yaşayan və təxminən 200 000 ildir genetik olaraq bəşəriyyətdən təcrid olunmuş qədim insanların əvvəllər məlum olmayan bir populyasiyasını kəşf ediblər. Bu barədə İsveçin Uppsala Universitetinin Mətbuat Xidməti məlumat verib. Məlumata görə, qalıqlar Limpopo çayının cənubundakı müxtəlif bölgələrdə tapılan insan sümüklərinin DNT analizi zamanı aşkar edilib. Alimlərin fikrincə, bu qədim insanların genomlarının öyrənilməsi bəşəriyyətin mənşəyini daha yaxşı anlamağa imkan verəcək.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.